Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 147 (7874) CÜMƏ, 6 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# İlham Əliyevin Ermənistan üzərində növbəti diplomatik uğuru



## Rusiyanın Azərbaycanla sıx hərbi siyasi münasibətləri işğalçı ölkədə narahatlıq yaradıb

**Azərbaycanın uğurlu gedişləri, Prezident İlham Əliyevin rasional, məqsədyönlü siyasəti bu gün işğal siyasətinə görə Ermənistanın tam təcrid vəziyyətinə düşməsinə gətirib çıxarıb. Hətta hamiləri belə yavaş-yavaş bu işğalçı ölkədən imtina etməyə başlayıblar. Rəsmi Bakı ən yüksək səviyyədə bildirir ki, Ermənistanın düşdüyü bu ağır vəziyyətin əsas səbəbi məhz işğal faktorudur və bu davam etdikcə Yerevan blokada vəziyyətində qalacaq.**

### *R.AKOPCANYAN:* "Rusiya Ermənistana böyük dərs verəcək"

İşğalçı tərəf onu da bilməlidir ki, Dağlıq Qarabağ probleminin həlli təkcə Ermənistana yox, bütövlükdə Qafqaza sülh və əmin-amanlıq gətirə bilər. Bu da həm Cənubi Qafqaz üçün rifah və sabitlik, həm də regionda strateji marağı olan ölkələr üçün yeni əməkdaşlıq perspektivləri deməkdir. Qeyd edilən fakt növbəti dəfə təsdiqini Cocuq Mərcanlıda keçirilən möhtəşəm tədbirdə əksini tapdı.

İyulun 1-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində "Bakı və Moskva arasında geopolitik ox: Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir" mövzusunda konfrans keçirilib.

Bu konfrans və görüşdə Rusiyanın Azərbaycanla açıq şəkildə yaxınlaşmaq niyyəti Ermənistanda narahatlıq yaradıb. Erməni siyasi şərhçi Razmik Akopcanyan bildirir ki, Kreml bununla Ermənistandan işğal etdiyi əraziləri Azərbaycana qaytarmağı tələb edir. O vurğulayır ki, Kremldə Ermənistan üçün yeni plan hazırlayırlar: "İndi Kreml bu planlarını gizlətmir. "Aprel müharibəsi" zamanı azad edilmiş ərazilərə Rusiya nümayəndə heyətini göndərdi və bəyan etdi: "Azərbaycan Qafqazda Rusiyanın tək müttəfiqidir".

Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edir, Gürcüstan və Ukrayna ilə dostluq edir, GUAM-da təmsil olunur. Kreml isə bütün bunlara rəğmən, Bakının əlini sıxır və onu dəstəkləyir. Görünür, Rusiya Ermənistana böyük dərs verməyi qərarlaşdırıbdır".

### *D.SAVELYEV:* "Dağlıq Qarabağ və yeddi rayon qeyd-şərtsiz Azərbaycana qaytarılmalıdır"

Erməni şərhçi işğaldan azad edilmiş ərazilərə ilk dəfə baş çəkən Rusiya nümayəndə heyətinin açıqlamalarından sitat gətirir. Söhbət Dövlət Dumasının komitə sədrinin müavini Dmitri Savelyevin açıqlamasından gedir. Dmitri Savelyev deyir: "Dağlıq Qarabağ və ona bitişik yeddi rayon qeyd-şərtsiz Azərbaycana qaytarılmalıdır".

Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin isə bəyan edir: "Qarabağda bu görüşü keçirmək simvolikdir. Bu, Azərbaycanın Rusiyanın strateji tərəfdaşı olduğunu bir daha göstərir. Hüquqi nöqteyi-nəzərdən Qarabağ Azərbaycanın ərazisidir. Rusiya Qarabağı Azərbaycanın ərazisi hesab edir və bu, beynəlxalq hüquqa əsaslanıb. Mən Qarabağa ilk dəfədir səfər edirəm. Bu həm də Qarabağ münaqişəsinə Rusiya ziyalılarının yanaşmasıdır".

### "Yeni müharibə başlasa, Ermənistanın heç bir şansı yoxdur"

Razmik Akopcanyan qeyd edir ki, Rusiya Ermənistanın yeni hakimiyyətinə təzyiq edir: "Kreml bizim hakimiyyətdən vaxtilə Putin və Serj Sarkisyan arasında razılaşdırılmış ərazilərin qaytarılması ilə bağlı planı həyata keçirməyi tələb edir. Əks təqdirdə, sabah müharibə başlayacaq. Bu müharibədə isə Ermənistanın heç bir şansı yoxdur".

*Ardı 3-cü səh.*

# Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin Azərbaycana səfərinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi və bunun üçün geniş potensialın mövcud olduğunu vurğuladı. Prezident İlham Əliyev nəqliyyat dəhlizi sahəsində də əməkdaşlığın önəm daşıdığını bildirərək qeyd etdi ki, Azərbaycan hazırda tərəfdaş və qonşu ölkələr arasında nəqliyyat bağlantısının yaradılması işinə fəal surətdə investisiya qoyur və ölkəmiz mühüm "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizinə çevrilməkdədir. "Şimal-Cənub" nəqliyyat layihəsinin uğurlu icrasına başlanmışdır. Azərbaycan bu sahəyə böyük həcmdə sərmayə qoyur. Dövlət başçısı iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından biznes sahəsində fəallığın artırılmasının vacibliyini də qeyd etdi. Azərbaycanda Finlandiyanın bir neçə şirkətinin çalışmasına toxunan Prezident İlham Əliyev bu şirkətlərin sayının daha da artırılmasının mümkün olduğunu dedi və bildirdi ki, Azərbaycanın iqtisadi inkişafı, perspektiv planlar, güclü iqtisadi infrastruktur digər xarici şirkətlər kimi, Finlandiya şirkətlərinin də iqtisadiyyatımızın müxtəlif sahələrində fəal çalışmaları üçün yaxşı imkanlar yaradır.

Xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleynin Finlandiya Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan Prezidenti ilə Finlandiya Prezidentinin Davosda keçirilən görüşünün məmnunluqla xatırlandığını bildirdi. Finlandiyanın xarici ticarət və inkişaf naziri ölkəmizə səfər proqramının çox məzmunlu olduğunu deyərək, səfər zamanı məhsuldar görüşlər keçirəcəyinə ümidvar olduğunu söylədi. O, Bakının gözəlliyinin nümayəndə heyəti üzvlərində böyük təəssürat doğurduğunu qeyd etdi və paytaxtımızda tarixi arxitektura abidələrinin müasir binalarla gözəl vəhdət təşkil etdiyini vurğuladı. Xanım Anne-Mari Viroleynin bildirdi ki, ölkələrimiz ümumi tarixə malikdirlər və Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var.

Görüşdə ölkələrimiz arasında energetika, tranzit, peşə təhsili, infrastruktur layihələrində Finlandiya şirkətlərinin iştirakı, iş adamları arasında ticarət əlaqələrinin artırılması, sərmayə qoyuluşu, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Finlandiya Prezidenti Sauli Niinistönün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Finlandiya Prezidentinə çatdırmağı xahiş etdi.

# Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin sentyabr ayında Sumqayıt Dövlət Dram Teatrının yaranmasının 50 illiyi tamam olur.

Azərbaycanın zəngin teatr ənənələrinin layiqli davamçısı kimi Sumqayıt Dövlət Dram Teatrı fəaliyyətə başladığı ilk vaxtlardan səmərəli yaradıcılıq axtarışları ilə daim diqqəti cəlb etmiş, klassik və müasir dramaturgiya xəzinəsinin bir sıra qiymətli nümunələrinə ustad sənətkarların yaxından iştirakı ilə yeni quruluşlarda uğurlu səhnə həyatı vermiş və ötən dövr ərzində tamaşaçı auditoriyasının rəğbətini qazanmışdır. Özünün istedadlı aktyor və rejissorlarını yetişdirən Sumqayıt Dövlət Dram Teatrı bu gün ölkənin tanınmış sənət ocaqlarından olub, milli mədəniyyətin ümumi tərəqqisi işinə töhfələr bəxş etməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və milli teatr sənətinin inkişafında xidmətlərini nəzərə alaraq Sumqayıt Dövlət Dram Teatrının yaradılmasının 50-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Sumqayıt Dövlət Dram Teatrının 50 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

# Ölkənin enerji sistemindəki vəziyyət ən yüksək səviyyədə nəzarətdədir

## *Baş vermiş qəzanın nəticələri aradan qaldırılır, səbəbləri aydınlaşdırılır*

Prezident İlham Əliyevin ölkənin enerji sistemində vəziyyətlə əlaqədar keçirdiyi müşavirə bir daha belə qənaətə gəlməyə əsas verir ki, dövlət başçısı ən kritik məqamlarda düzgün və operativ qərarlar qəbul edir, yaranan çətinlikləri tələbkarlıqla araşdırır, təcili çıxış yollarını təyin edir və vəziyyətin normallaşması üçün zəruri addımlar atır.

Müşavirənin mətbuatda geniş işıqlandırılması isə ictimaiyyətin nigarançılığına son qoyur, qaranlıq məqamlara aydınlıq gətirir, kimin günahkar olduğunu üzə çıxarır. Bütün bu addımlar cəmiyyətdə əminlik yaradır, lüzumsuz şayiələrin qarşısını alır.

Xəbər verildiyi kimi, Mingəçevir İES-də baş vermiş qəzanın nəticələri dövlət orqanlarının gördüyü peşəkar tədbirlər nəticəsində qısa müddət ərzində aradan qaldırılaraq enerjinin verilməsi bərpa edilmişdir. Qəza zamanı insan itkisi halı baş verməmişdir. Fövqəladə Hallar Nazirliyi təxliyə işlərini tez və düzgün şəkildə aparmış, xilasedicilər metroda və liftlərdə qalmış vətəndaşları xilas etmiş, daxili işlər orqanları asayişin qorunub saxlanması, şəhər nəqliyyatının idarəolunmaz vəziyyətə düşməməsi üçün operativ tədbirlər görmüşlər. Bakı Nəqliyyat Agentliyi xətlərə yeni avtobuslar çıxarmış, qəza baş verən gün və səhərisi ictimai nəqliyyat pulsuz işləmişdir.

İnternet resurslarında xaricdən sərt və gərginliyə səmtlənən çağırışlar olsa da, ölkə vətəndaşları böyük məsuliyyət və vətəndaş həmrəyliyi nümayiş etdirmişlər. Onu da qeyd edək ki, dövlət başçısı bu məqamı yüksək qiymətləndirmişdir: "Azərbaycan cəmiyyəti çox yetkin cəmiyyətdir və Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur".

Bununla belə, dövlət başçısı vurğuladı ki, bir qəza nəticəsində ölkənin bütün enerji sisteminin sıradan çıxması bağışlanılmaz haldır. Çünki qızmar istilərdə insanlar böyük əziyyət çəkmiş, iqtisadiyyata ziyan dəymişdir.

Müşavirədə dövlət başçısının sərəncamı ilə yaradılan xüsusi komissiyanın ilkin araşdırmaları dinlənildi və məlum oldu ki, Mingəçevir şəhərindəki "Azərbaycan İstilik Elektrik Stansiyası"nın 330 kilovoltluq yarımstansiyasında cərəyan transformatorunda qəza nəticəsində ətrafa axan yağ kabellərin üzərinə dağılaraq yanğına səbəb olmuşdur. Stansiyaya xidmət edən 6-cı blokda iş dayansa da, ona verilən qazın dayandırılması yanğına səbəb olmuşdur. Yanğın söndürülsə də, enerji blokları və hava xətlərində qəza açılışları olmuş, stansiyada gərginlik tam itmişdir. Birinci "Abşeron" hava xətti ilə elektrik cərəyanının verilişi tam dayanmışdır.

Qəzanın səbəblərini daha dəqiq müəyyən etmək üçün Energetika, eləcə də Fövqəladə Hallar nazirliklərinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Neft və Sənaye Universitetinin mütəxəssislərindən ibarət ekspert komissiyası yaradılmışdır. Artıq fəaliyyətə başlayan komissiya bir həftə ərzində araşdırmaları başa çatdırıb yekun məruzə hazırlayacaqdır.

Dövlət başçısı komissiya üzvlərini bir daha xalq və ölkə qarşısında məsuliyyətli olmağa çağırdı və bunun səbəblərini açıqladı: "Təkcə Neft Şirkətinin indi burada deyilən ziyanını hesablasaq, ölkəyə nə qədər böyük iqtisadi ziyan dəyib. Mən bu sahəyə bu qədər investisiya ayırmışam. Dövlət İnvestisiya Proqramında hər il bu məqsədlə böyük vəsait ayrılır... Son 15 il ərzində 30 stansiya tikilmişdir. Elə bir sistem qurulmalı idi ki, bir qəzaya görə ölkənin enerji sistemi çökməsin. Nə üçün Bakıda, Sumqayıtda, qeyd etdiyim kimi, bölgələrdə istifadəyə verilmiş elektrik stansiyaları o qəza baş verəndən sonra fəaliyyətini dayandırdı?! Siz bunun səbəbləri haqqında danışmalısınız. Bunun izahatını siz verməlisiniz".

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov etiraf etdi ki, stansiyada təxminən bütün 63 açarın qabağındakı kanalların hamısının üstü möhkəmləndirilməmiş, əvvəlki iradlarla bağlı heç bir addım atılmamış, ərazi quru otlardan təmizlənməmişdir. Soyutma qurğularının heç biri, demək olar ki, işləmir.

Dövlət başçısı komissiyanın növbəti iclaslarında bütün qaranlıq məqamların geniş müzakirə olunmasının vacibliyini vurğuladı. Qəzanın səbəbləri son nöqtəsinədək araşdırılmalıdır. Müşavirədə müzakirə edilən ilkin məlumatlar bir çox məsələlərə aydınlıq gətirsə də, daha dəqiq və konkret məlumatların araşdırılmasına ehtiyac var: "Qəzanın səbəbləri vacib olsa da, bundan daha önəmli məsələ qəza nəticəsində ümumi sistemin sıradan çıxmasıdır. Bu, çox ciddi bir faktdır və əlavə tədbirlər görülməlidir ki, gələcəkdə əgər hər hansı bir qəza baş verərsə, ümumi sistemə bunun təsiri olmasın, yəni qəza lokal xarakter daşısın. Bu, hesab edirəm ki, komissiyanın işində əsas istiqamət olmalıdır. Tədbirlər planı hazırlanmalıdır. Tədbirlər planına bu gün bu müşavirədə səsləndirilən fikirlər də salınmalıdır, o cümlədən beynəlxalq auditin cəlb edilməsi məsələsi.

*Ardı 2-ci səh.*



# "Şahdəniz" Xəzərdə tək deyil

## Azərbaycanın ən azı 100 il özünü və bir sıra ölkələri qazla təmin etmək imkanı var

**Son illərdə Xəzərin Azərbaycan sektorunda kəşf edilmiş yeni yataqlar ölkəmizin həm də zəngin qaz mənbələrinə malik olduğunu təsdiqləyib. Həmin mənbələrin işlənməsi Azərbaycanı qısa müddət ərzində dünyada qaz ixrac edən ölkə kimi tanıdıb. Bu, ilk növbədə, böyük ehtiyatlara malik "Şahdəniz" yatağının sayəsində baş verib. "Şahdəniz"in 1,2 trilyon kubmetr qaz, 240 milyon tondan çox kondensat ehtiyatı var.**

Sözügedən yatağın nəhəngliyi həm də onunla sübut olunub ki, ehtiyatlarını iki mərhələdə işləmək lazım gəlib. "Şahdəniz-1"dən 2006-cı ildən başlayaraq qaz hasil olunur. "Şahdəniz-2" isə bu yaxınlarda istismara daxil edilib. Mütəxəssislərin dediklərinə görə, hətta "Şahdəniz-3" də ola bilər. Üstəlik, "Şahdəniz" Xəzərdə tək deyil. Yaxın gələcəkdə bir sıra digər perspektivli yataqlardan da hasilata başlanacaq.

Təsadüfi deyil ki, bunlar keçən ilin fevral ayında "Cənub qaz dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən üçüncü toplantısı zamanı bir daha vurğulanıb. Toplantı iştirakçılarının qəbul etdikləri bəyannamədə Azərbaycanın Avropaya əlavə qaz həcmləri verə biləcək işlənməmiş əhəmiyyətli mənbələrinin olduğu göstərilib.

*Ardı 3-cü səh.*

# İlham ƏLİYEV: “Dünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verir”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Dünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verib və Tedros Adhanom Qebreyesusun bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmlidir. Səhiyyənin Azərbaycanda prioritet sahələrdən biri olduğunu qeyd edən dövlət başçısı son illər ölkəmizdə bu sahədə böyük işlərin görüldüyünü, xeyli sayda yeni xəstəxanaların və tibb mərkəzlərinin tikildiyini vurğuladı. Prezident İlham Əliyev məmnunluq hissi ilə qeyd etdi ki, hazırda Azərbaycanın hər bir şəhərində bütün lazımi tibbi xidmətləri əhatə edən ən müasir avadanlıqla təchiz olunmuş tibb ocaqları fəaliyyət



göstərir. Görülən bütün bu işlər orta yaş həddinin artması və uşaq ölümünün azalmasına öz müsbət təsirini göstərib. Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirib. Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus, ilk növbədə, prezident seçkilərində qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi. Tedros Adhanom Qebreyesus Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı görülən işlərdən danışdı. Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən islahatlara, ölkəmizin hər yerində ən müasir tibb ocaqlarının inşa edilməsinə toxunan qonaq bu istiqamətdə əldə edilən nailiyyətləri Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. Dünya Səhiyyə Təşkilatının baş direktoru ölkəmizdə qaçqın və məcburi köçkünlərə göstərilən yüksək dövlət qayğısından da danışaraq bildirdi ki, bu sahədə Azərbaycanın təcrübəsi bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## T.İ.Sinyavskayanın “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Rusiya-Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Tamara İlyiniçna Sinyavskaya “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

## R.G.Xəlilovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Rüstəm Gülabba oğlu Xəlilov “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

## T.B.Qorçuya “Əməkdar incəsənət xadimi” fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Tərlan Böyükbala oğlu Qorçuya “Əməkdar incəsənət xadimi” fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2018-ci il*

## “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə qoşulmaq haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2013-cü il 27 iyun tarixli “Dərc olunmuş əsərlərin kor, görmə qüsurlu və ya çap məhsullarını oxumaqla bağlı başqa əlilliyi olan şəxslər üçün əlçatanlığını asanlaşdırmağa dair Mərakeş Müqaviləsi”nə müvafiq bəyanatlarla qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2018-ci il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Hindistan Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında” 2018-ci il aprelin 4-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2018-ci il*

# Azərbaycan Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın daha da inkişafında maraqlıdır



Azərbaycan Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın daha da inkişafında maraqlıdır.

AZƏRTAC xəbər verir ki, bu fikir iyulun 5-də Azərbaycanın Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşündə səslənib.

Əli Əhmədov Azərbaycan hökumətinin Dünya Səhiyyə Təşkilatı ilə mövcud əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini və əlaqələrin möhkəmləndirilməsi istiqamətində konkret və praktiki addımların atılmasında maraqlı olduğunu vurğulayıb.

Azərbaycanın səhiyyə sistemindən danışan Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə bu sahənin yenidən qurulması və inkişaf etdirilməsi məqsədilə xeyli işlər görülüb. O bildirib ki, Azərbaycan hökuməti öz vəzifələrinə kifayət qədər məsuliyyətlə yanaşır. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və şuranın daimi əsaslarla fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Baş nazirin müavininin Milli Əlaqələndirmə Şurasına sədr təyin olunması bu məsələyə olan diqqətin göstəricisidir. Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb.

Baş nazirin müavini diqqətə çatdırıb ki, Azərbaycan qlobal əməkdaşlıqlara çox böyük əhəmiyyət verir. Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərin reallaşmasında BMT-nin verdiyi dəstək böyük önəm kəsb edir. Görüşdə son illər Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən layihələr, tibbi sığortanın əhəmiyyəti, səhiyyə infrastrukturunun yenilənməsi istiqamətində görülən işlər haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, bütün bunlar Azərbaycan vətəndaşının layiqli səhiyyə xidməti ilə təmin olunmasına hesablanıb. Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ölkəmizdə olmasından və burada gördüyü yüksək qonaqpərvərlikdən məmnunluğunu ifadə edib. Azərbaycanda səhiyyə sahəsində görülən işləri yüksək dəyərləndirdiklərini vurğulayan qonaq bunun yaxşı nəticələrə yol açacağını deyib. Baş direktor bu ilin Azərbaycan üçün əlamətdar olduğunu deyərək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı təbriklərini çatdırıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Ölkənin enerji sistemindəki vəziyyət ən yüksək səviyyədə nəzarətdədir

*Əvvəli 1-ci səh.*

Hesab edirəm ki, bu, çox vacibdir. Həm Mingəçevirdəki İstilik Elektrik Stansiyasının tam təftişi və auditi aparılmalıdır. Eyni zamanda, ölkəmizin bütün enerji sisteminin beynəlxalq, aparıcı, bu sahədə peşəkarlıqla seçilən qurumlar tərəfindən təhlili aparılmalıdır və təkliflər verilməlidir. Bu işlərdə günahı olan bütün insanlar müəyyən edilməlidir və onlar cəzalandırılmalıdır”.

Müşavirədə dövlət başçısı strateji obyektlərdə, o cümlədən xəstəxanalarda və metroda generatorların quraşdırılması məsələsini də müzakirəyə çıxardı. Bütün xəstəxanalarda generatorların işləməsi barədə müşavirədə məlumat verən səhiyyə nazirinə irad tutdu: “İndi səhiyyə naziri məruzə edir ki, bütün xəstəxanalarda generatorlar işləyib. Məndə olan məlumata görə bu, həqiqətə uyğun deyil. Bəzi xəstəxanalarda generatorlar işləməyib, ya olmayıb, ya qoşulmayıb, ya da ki, işlək vəziyyətdə olmayıb”.

Metropolitenə gəldikdə, aydın oldu ki, burada, ümumiyyətlə, generatorlar yoxdur. Bakı Metropoliteninin bütün stansiyalarında generatorların quraşdırılmasının zəruriliyi diqqətə çatdırıldı.

Bir sözlə, Mingəçevir İES-də baş vermiş qəza nəticəsində ölkənin enerji sistemində yaranmış vəziyyətlə bağlı keçirilən müşavirə bir daha göstərdi ki, dövlət başçısı fövqəladə hallarda belə, problemin həlli istiqamətində çevik addımlar atır, operativ qərarlar qəbul edir. Prezident bu zaman həmçinin mərkəzi icra orqanlarının rəhbərlərinə qarşı daha tələbkar olur. Söz yox ki, enerji sistemində baş vermiş qəzanın nəticələrinin tezliklə aradan qalxmasının əsas səbəbi də bunlardır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Bakı Konqres Mərkəzində “SABAH”ın məzunu-2018” mərasimi keçirilib









İyulun 5-də Bakı Konqres Mərkəzində “SABAH”ın məzunu-2018” mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ali məktəblərin rektorları, təhsil ekspertləri və məzunlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesində “Mən “SABAHAM” mövzusunda sərgi ilə tanış olublar.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

“SABAH” qruplarının fəaliyyəti haqqında videoçarx nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın “SABAH”ın məzunu” mərasiminin iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub.

Məktubu Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev oxuyub.

Məktubda deyilir ki, təhsil strateji və prioritet sahə olmaqla dövlətimizin daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən 2013-cü ildə imzalanmış “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na əsasən, ölkəmizdə təhsil sahəsində bir sıra əsaslı islahatlar keçirilib və bu proses indi də davam edir. Bizim əsas hədəflərimizdən biri universitetlərdə tədrisin keyfiyyətini artırmaq və qlobal əmək bazarının tələblərinə cavab verən məzunlar yetişdirməkdir. “Təhsil millətin gələcəyidir” - məhz bu fikri əsas tutaraq ölkə rəhbərliyinin başçılığı ilə son illərdə təhsil sahəsində bir sıra yüksək göstəricilərə nail olmuşuq. Bu gün Azərbaycanda savadlılıq, demək olar ki, 100 faiz təmin olunub. Belə bir mühit, ilk növbədə, sizə - gənclərə çoxsaylı imkanlar yaradır. Təbii ki, ölkəmiz son illər ərzində bütün sahələr üzrə inkişaf edir. Prezident İlham Əliyevin söylədiyi kimi, biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün isə əlbəttə ki, gənclər bilikli olmalıdır. Bu fikir, şübhəsiz, bizim gələcəyə baxışımızı və hədəflərimizi müəyyən edir”.



Bildirilir ki, qısa dövrdə Xalq Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri də məhz təhsil sahəsində olan yeniliklər idi. Azərbaycan dilində tədrisə başlanılması, ilk universitetin yaradılması və gənclərin xaricdə təhsilinə dəstək verilməsi kimi mühüm addımlar atılıb. Lakin bundan sonra biz nailiyyətlərimizi qoruyub saxlamağa və daha da yüksək zirvələrə qaldırmağa birlikdə çalışmalıyıq. Buna nail olmaq hər bir Azərbaycan vətəndaşı, xüsusilə siz gənclərsiz mümkün deyil.

Təhsil naziri Ceyhun Bayramov təhsilin inkişafının ölkəmiz üçün bütün dövrlərdə müstəsna əhəmiyyət daşıdığını vurğulayıb. Nazir Prezident İlham Əliyevin “qara qızılın insan kapitalına çevrilməsi” konsepsiyasının dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrildiyini, həyata keçirilən təhsil islahatlarının məhz bu məqsədə xidmət etdiyini diqqətə çatdırıb.

Nazir qeyd edib ki, “SABAH” layihəsi beynəlxalq təcrübənin öyrənilməsi ilə yanaşı, məhz Azərbaycanın dəyərləri və ölkə qarşısında duran məqsədlər nəzərə alınaraq yaradılmış bir təhsil modelidir. Dörd il əvvəl yaradılmış “SABAH” qruplarının ilk nəticələri haqqında danışan nazir bildirib ki, 2017-ci ildə ali təhsil müəssisələrini bitirmiş 721 “SABAH” məzununun 37 faizi Azərbaycanda, 16 faizi isə xarici ölkələrdə magistratura səviyyəsində təhsilini davam etdirir.

Müasir və sürətlə dəyişən dünyada uğura gedən yolun peşəkar bilik və bacarıqların, innovasiyalara açıq olmaq qabiliyyətinin birliyindən keçdiyini deyən C.Bayramov bu yolda “SABAH” məzunlarına uğurlar arzulayıb, onları təbrik edib.

“SABAH”ın məzunları - Bakı Musiqi Akademiyasının tələbəsi Vüsalə Babayeva və Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Samir Hüseynov “SABAH”ın onlar üçün yaratdığı imkanlardan, bu qruplarda müasir dünyanın tələblərinə cavab verən yüksək hazırlıqlı mütəxəssislərin yetişməsi üçün münbit şəraitdən danışıb, əldə etdikləri bilik və bacarıqların gələcək karyeralarında əhəmiyyətli rol oynayacağını vurğulayıblar.

Daha sonra təhsil aldıqları müddətdə ən yüksək akademik göstəricilər əldə edən “SABAH” məzunlarına sertifikatlar təqdim olunub, həmçinin rəmzi “SABAH” açarı üçüncü kurs tələbələrinə verilib.

Sonda “SABAH” qruplarının himni səsləndirilib.

Qeyd edək ki, “SABAH” qrupları 2014-2015-ci tədris ilində 34 ixtisas üzrə yeddi dövlət ali təhsil müəssisəsində yaradılıb. Hazırda 12 ali təhsil müəssisəsində fəaliyyət göstərən “SABAH” qrupları 40-dan artıq ixtisas üzrə 2300-dən çox tələbəni əhatə edir. Cari tədris ilində isə 842 “SABAH” məzunu təhsilini başa vurub.

# Cəbhənin ön xəttində yeni inşa edilmiş infrastruktur obyektinin açılışı olub





Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhənin ön xəttində inşa edilmiş infrastruktur obyektinin açılışında iştirak ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yeni qərargah binası, əsgər yataqxanası və yeməkxanada yaradılan şəraitlə tanış olan nazir hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

# Təlimlərdə gecə vaxtı döyüş atışları keçirilib





Genişmiqyaslı təlimlərin gecə vaxtı döyüş atışlı mərhələsi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələdə qoşunlar şərti düşmənin bütün hədəflərini məhv edərək tapşırıqları uğurla yerinə yetiriblər. Gecə vaxtı və məhdud görmə şəraitində keçirilən təlimlərə qatılan motoatıcı, tank, raket-artilleriya, zenit-raket bölmələri, eləcə də aviasiya vasitələri döyüş atışlarını dəqiq və peşəkarlıqla icra ediblər.

# SOCAR AQŞ-nin dəstəyi ilə MIT-Azərbaycan Qlobal Startap Laboratoriyası fəaliyyətə başlayıb

SOCAR AQŞ MMC-nin sosial məsuliyyət proqramı çərçivəsində Massaçusets Texnologiya İnstitutu (MIT) ilə birgə həyata keçirdiyi ilk MIT-Azərbaycan Qlobal Startap Laboratoriyasının açılış mərasimi ADA Universitetində keçirilib.

MMC-dən AZƏRTAC-a bildirilib ki, layihənin əsas məqsədi mobil/veb tətbiqinə əsaslanan startap (yeni texnologiya və innovativ ideyalara əsaslanan yeni müəssisələrin təsis olunması) və özəl sahibkarlığın inkişafına töhfə vermək, tələbələr üçün sahibkarlıq və kompüter proqramlaşdırma sahələri üzrə intensiv kurslar təşkil etməkdir.

MIT-nin müsabiqə komissiyası proqramda iştirakla bağlı müraciət etmiş müxtəlif ali təhsil müəssisələrində təhsil alan gənclər arasından ən istedadlı 30 tələbəni seçərək onlara 7 həftəlik intensiv kursda iştirak etmək hüququ verib.

Proqramda ADA Universitetinin, Xəzər Universitetinin, Bakı Mühəndislik Universitetinin, Bakı Ali Neft Məktəbinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Bakı Dövlət Universitetinin istedadlı tələbələri ilə yanaşı, dünyanın tanınmış universitetlərində təhsil alan azərbaycanlı tələbələr də var.

İlk MIT-Azərbaycan Qlobal Startap Laboratoriyasının açılış mərasimində çıxış edən ADA Universitetinin rektoru professor Hafiz Paşayev deyib ki, startap laboratoriyasının fəaliyyətə başlaması ölkənin sahibkarlıq ekosisteminin təkmilləşməsinə əhəmiyyətli dərəcədə təkan verəcək: "Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil alan, xarici dil və yüksək texniki biliklərə malik olan gənclərin MIT-Azərbaycan Qlobal Startap Laboratoriyasında bir araya gəlməsi çox xoşdur. Xüsusilə də iştirakçılar arasında gender balansının gözlənilməsi, qızlarımızın da fəal olaraq kursda iştirak etmələri təqdirəlayiqdir. ADA Universitetinin İnnovasiyalar Mərkəzi də startap laboratoriyasının bizim universitetdə fəaliyyətə başlaması fürsətindən yararlanaraq həm işçilərini bu proqrama cəlb edəcəklər, həm də ideyaların inkişaf etdirilməsi baxımından zəngin təcrübə qazanmış olacaqlar".



SOCAR AQŞ MMC-nin baş direktoru Ramin İsayev proqramda iştirak etmək hüququ qazanmış tələbələri təbrik edib, onlara tədris müddətində müvəffəqiyyətlər arzulayaraq deyib: "Bildiyiniz kimi, "kompüter texnologiyalarının mərkəzi" adlandırılan Massaçusets Texnologiya İnstitutu elm və texnologiya və süni intellekt sahələri üzrə dünya lideridir. MIT çoxsaylı elmi kəşflərin yarandığı məkandır. Təsadüfi deyil ki, biz məhz bu məşhur elm ocağının startap laboratoriyasını pilot layihə olaraq Azərbaycana, siz gənclər üçün gətirmişik. İntensiv kurs ərzində siz, ideyalarınızı təkmilləşdirmək üçün çərçivə prinsiplərini öyrənəcəksiniz. Bu biliklər sayəsində siz öz ideyalarınızı yerli və milli səviyyədən qlobal səviyyəyə daşıya biləcəksiniz. Məqsədimiz siz gənclərin vasitəsilə ölkəmizin gənc innovativ sahibkarlıq mühitinin inkişafına dəstək verməkdir".

MIT-Azərbaycan Startap Laboratoriyasının qrup lideri Katherine Curiel Azərbaycanda startap laboratoriyasının ilk intensiv kurs təlimatçısı olduğundan qürur duyduğunu qeyd edib: "MIT məzunu olaraq müxtəlif ölkələrdə işləmək, ən yaxşı təcrübə və müasir yanaşmaları gənclərə aşılamaq böyük məsuliyyət tələb edir. İnanıram ki, azərbaycanlı gənclər onlar üçün yaradılmış bu nadir fürsətdən lazımınca yararlanacaqlar. Bu pilot layihənin nəticəsi yeni təşəbbüslərin yaranmasına və daha geniş vüsət almasına böyük təkan verəcək".

Qeyd edək ki, tədris müddətində gənclərə startap biznesinin təsis edilməsi ilə bağlı dəstək veriləcək. Gənc ideya müəllifləri investorlar, startap və inkişaf mərkəzlərinin nümayəndələri və ölkəmizin startap ekosisteminin aparıcı qurumları ilə görüşəcək. Məzunlar MIT-nin qlobal startap və ideya müsabiqələrində iştirak edə biləcəklər. Bununla da qlobal startap laboratoriyası gənc sahibkarların qlobal maliyyə, innovasiya və startap ekosistemlərinə çıxış imkanlarını genişləndirəcək.

SOCAR AQŞ milli qazma müəssisəsi olaraq neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində mövcud imkanların artırılmasına yönəlmiş təşəbbüs və proqramları dəstəkləyir. SOCAR AQŞ ali məktəblərin 3-cü və 4-cü kurslarında, eləcə də magistr dərəcəsində təhsil alan tələbələr üçün Yay Təcrübə Proqramını həyata keçirir, həmçinin neft-qaz ixtisası üzrə təhsil alan tələbələr üçün SOCAR AQŞ Tələbə Təqaüdü təsis edilib.

SOCAR AQŞ-nin səhmdarları SOCAR və "Nobel Oil Services" şirkətləridir.

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı üzrə növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1-ci və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Şəki Apelyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib. Qərarda deyilir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470-ci, 472-ci, eləcə də 1146-cı, 1255-ci və 1306-cı maddələrinə uyğun olaraq, borclunun ölümündən sonra, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası tələbi irəli sürülərkən, mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.

Borclunun ölümü zaminliyin xitamına səbəb olmur. Zaminin ölmüş borclunun kreditorları qarşısında məsuliyyətinin həddi miras əmlakın həcmi ilə məhdudlaşmır. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, eləcə də miras əmlakın həcmi vərəsələrə öhdəliyi icra etməyə imkan vermədikdə, zamin kreditor qarşısında tam məsuliyyət daşıyır.

Vərəsələr və zamin borclu öldükdən sonra əsas borcdan əlavə, faiz borcuna görə də məsuliyyət daşıyırlar. Borclunun təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda hesablanmış dəbbə pulunun ödənilməsi ilə bağlı tələb kreditor tərəfindən bu qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş qaydada vərəsələr və ya zaminə qarşı irəli sürülə bilər. Vərəsələr və ya zaminin təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor dəbbə pulunun ödənilməsini bu hərəkətləri törətmiş şəxsdən tələb edə bilər.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsinin bu qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# İlham Əliyevin Ermənistan üzərində növbəti diplomatik uğuru

## Rusiyanın Azərbaycanla sıx hərbi siyasi münasibətləri işğalçı ölkədə narahatlıq yaradıb

*Əvvəli 1-ci səh.*

Konfrans iştirakçısı, Rusiya "Milli müdafiə" jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenkonun açıqlaması da erməni tərəfində ciddi narahatlıq yaradıb. O bildirib ki, Azərbaycanın güclü Prezidenti var və biz İlham Əliyevin özünü təmin edə bilən suveren dövlətin möhkəmləndirilməsi üzrə səylərini alqışlayırıq: "Biz Azərbaycanın ordu quruculuğu prosesini diqqətlə izləyirik. Rusiya Azərbaycanı silahla təchiz edir. Rusiya ölkənizin ordusunun möhkəmlənməsində maraqlıdır".

*"Armenianreport.com":*

"Kreml Cocuq Mərcanlıya öz desantlarını göndərdi"

Baş verənlərlə bağlı "armenianreport.com" saytı yazır: "Kreml Gürcüstan və Ukrayna kimi Ermənistana qarşı da nəsə hazırlayır. Bu, əvvəl də aydın idi, ancaq indi planı o, heç gizlətmir də. Cocuq Mərcanlıya bir dəstə Kreml desantlarının göndərilməsi buna sübutdur. Onlar "Azərbaycan - Qafqazda Rusiyanın yeganə müttəfiqidir" adlı tədbirə qatılıblar. Onların hamısı Bakı publikasına xoş gələn açıqlamalar verdilər. Savelyev isə lap uzağa gedib. "Dağlıq Qarabağ və ətrafındakı 7 rayon qeyd-şərtsiz Azərbaycana qaytarılmalıdır" deyib. Ən çox qəzəb doğuran isə Duqin oldu - hansından ki, bizim KİV sitatlar gətirməyi, müsahibə götürməyi sevir. "Bu, çox rəmzidir ki, biz bu görüşü Qarabağda keçiririk. Bu, bir daha göstərir ki, Azərbaycan Rusiyanın strateji müttəfiqidir. Hüquqi nöqteyi-nəzərdən Qarabağ Azərbaycan ərazisidir. Rusiya Qarabağı Azərbaycanın ərazisi hesab edir və bu, beynəlxalq hüquqa görə də belədir. Mən ilk dəfə Qarabağda səfərdəyəm. Bu həm də Rusiya ziyalı təbəqəsinin Qarabağ probleminə yanaşmasının təzahürüdür" - Duqin deyib. Hələ Şevçenko kimi ayrı natiqlərin də çıxışları olub. Amma Duqinin söylədiklərindən sonra hər şey olduqca aydındır: Kreml bizim hakimiyyətə qarşı təzyiqə keçib".

Azərbaycan və Rusiya arasında cəbhə bölgəsində belə bir konfransın keçirilməsi Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda uğurlu addım kimi səciyyələndirilə bilər. Bu münaqişənin yaranmasında və indiyədək davam etməsində Kremlin necə bir rol oynadığı hamıya yaxşı məlumdur. Onun həlli məsələsinin əsas ağırlıq yükü də Moskvanın boynuna düşür. Buna görə də Rusiya rəsmilərinin dilindən səslənən bu bəyanatları ilk növbədə Azərbaycan diplomatiyasının uğuru kimi səciyyələndirmək düzgün olar. Bakının balanslı və müstəqil siyasəti belə bir vəziyyətin yaranmasını şərtləndirir. Bu anlamda indi Azərbaycanın da əlində ciddi təbliğati material var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yaranmış hazırkı durumda bu, çox vacib məqamdır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Səbaildə əhali ilə səyyar görüşlər keçirilir

Ölkə rəhbəri İlham Əliyevin tapşırığına uyğun olaraq Səbail rayonunun qəsəbə və yaşayış massivlərində, ayrı-ayrı məhəllələrində davamlı şəkildə rayon icra hakimiyyəti başçısının sakinlərlə görüşləri keçirilir.





Rayonun qədim Bibiheybət qəsəbəsində Səbail RİH başçısının, təsərrüfat və digər xidmət sahələrinin, qəsəbə bələdiyyəsinin, ictimaiyyət nümayəndələrinin və qəsəbədə fəaliyyət göstərən iş adamlarının iştirakı ilə növbəti görüş keçirilmişdir.

Prezident İlham Əliyev tərəfindən ölkədə aparılan böyük abadlıq quruculuq işləri, həyata keçirilən sosialyönümlü layihələr və rayonda görülən digər işlər barədə məlumat verən Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov sakinləri narahat edən problemlərlə bağlı verilən sualları ətraflı cavablandırmış, onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparılmışdır.

Görüşdə qəsəbədə çalışan sahibkarların küçələrin işıqlandırılması işlərində yaxından iştirak etmələri ilə bağlı təklifləri müsbət qarşılanmışdır.

Görüşdə iştirak edən sakinlər çıxış edərək ərazidə aparılan davamlı abadlıq-quruculuq işlərindən razılıq edərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş ediblər. Müraciətlərdə qəsəbənin su və qazla təminatı, yaxınlıqdakı müəssisənin ətraf mühitə zərər vurması, məhəllədaxili küçələrin təmiri, qurumuş ağacların kəsilməsi, məişət tullantılarının daşınması, yeniyetmələrin idmanla məşğul olması üçün meydançanın olmaması, mənzil şəraitinin yaxşılaşdırılması və onları narahat edən digər suallar səslənmişdir.

Rayon icra hakimiyyətinin başçısı Eldar Əzizov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə konkret tapşırıqlar verib və müraciətlərin icrası nəzarətə götürülüb.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# "Şahdəniz" Xəzərdə tək deyil

## Azərbaycanın ən azı 100 il özünü və bir sıra ölkələri qazla təmin etmək imkanı var



*Əvvəli 1-ci səh.*

Qeyd edilib ki, "Abşeron", "Ümid", "Babək", "Qarabağ", "Dan Ulduzu", "Əşrəfi", "Şahdəniz-3" və digər yataqlar "Cənub qaz dəhlizi"nin növbəti inkişaf mərhələsində ehtiyat bazası ola bilər. Bu yataqlar sırasında "Abşeron" xüsusi yer tutur.

Xəzər dənizinin dərin sularında yerləşən "Abşeron" bloku üzrə 2009-cu il fevralın 27-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR-la Fransanın "Total" şirkəti arasında Hasilatın Pay Bölgüsü Sazişi imzalanıb. 2011-ci il sentyabrın 1-də "Abşeron" Kəşfiyyat, İşlənmə və Hasilatın Pay Bölgüsü Sazişinə uyğun olaraq kəşfiyyat dövrü ərzində operator qismində çıxış edən "Total E&P Absheron" Azərbaycanın bu dəniz blokunda iri qaz yatağının aşkarlandığını bildirib.

"Abşeron" Bakıdan 100 kilometrlik məsafədə, suyun 500 metr dərinliyində yerləşir. Orada qazılan quyunun ilk nəticələri burada bir neçə trilyon kubfut qaz, eləcə də kondensat ehtiyatlarının olduğunu təsdiqlədi. Qazma zamanı yatağın quruluşu ilə bağlı bir sıra problemlər ortaya çıxsa da, "Total" dünyanın müxtəlif neft regionlarında işləyərkən topladığı zəngin təcrübəni və mütəxəssislərini səfərbər edərək müsbət nəticəyə nail oldu. Beləliklə, yatağın işlənməsinə start verildi.

Proqnozlara əsasən, ilk quyu 2019-cu ildə sutkalıq 4 milyon kubmetr qaz hasilatı ilə istismara verilməlidir. Həmin il "Abşeron"dan ilk faza çərçivəsində 1,5 milyard kubmetr, 2022-2023-cü illərdə isə ikinci faza üzrə 5 milyard kubmetr təbii qazın hasil edilməsi gözlənilir. Qazma işlərinin Heydər Əliyev adına üzən qazma qurğusu ilə həyata keçirilməsi planlaşdırılır.

Aparılan tədqiqatlar nəticəsində "Abşeron"un Erkən Hasilat Sxemi əsasında işlənməsi qərara alınıb. Bu sxem sualtı quyunun Neft Daşları yaxınlığındakı qəbuledici platformaya qoşulmasına əsaslanır. Burada qaz ilkin emaldan keçiriləcək, sonra mavi yanacaq və kondensat ayrı-ayrı xətlərlə SOCAR-ın mövcud infrastrukturu ilə nəql olunacaq. Qazın yerli bazara nəqli, kondensatın əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinə vurulması nəzərdə tutulub.

Azərbaycanda bir sıra iri neft, qaz və ixrac layihələrinin əməliyyatçısı BP şirkəti ilə birlikdə işlənən "Şəfəq-Asiman" strukturunda aparılan üçölçülü seysmik kəşfiyyat işləri başa çatdırılıb. Nəticələr burada qaz yığımına malik böyük bir yatağın olduğunu ehtimal etməyə imkan verir. Tezliklə yataqda ilk kəşfiyyat qazmasının həyata keçirilməsi nəzərdə tutulur. Sonra "Zəfər-Məşəl" və "Naxçıvan" strukturlarında işlərə başlanacaq.

Digər yataqlarda da məqsədyönlü işlər aparılır. Məsələn, "Ümid" "Şahdəniz"dən sonra Xəzərin milli sektorunda kəşf edilən ilk yeni qaz yatağıdır. Hesablamalar göstərir ki, yatağın karbohidrogen ehtiyatları 200 milyard kubmetr qaz və 40 milyon ton kondensat həcmindədir. "Ümid"də qazılmış ilk istismar quyuları sayəsində burada xeyli qaz və kondensat istehsal edilib. İki il əvvəl qazılmış 14 nömrəli istismar quyusundan alınmış müsbət nəticə yatağın şimal-qərb hissəsində yeni platformaların quraşdırılmasına əsas verir. Yatağın genişmiqyaslı istismarını həyata keçirmək üçün 10 quyuluq yeni özülün tikintisi planlaşdırılır.

Geoloji tədqiqatlar "Ümid"in yaxınlıqda yerləşən "Babək" strukturuna bağlı olduğunu göstərib. Odur ki, bu iki yatağın birgə işlənməsinin səmərəli təşkili üzrə Risk Xidmət Sazişi imzalanıb.

Beləliklə, qaz hasilatının artırılmasında Azərbaycanın müstəqil surətdə işlədiyi yataqlarda aparılan tədbirlər də mühüm rol oynayır. Son illər "Bulla-dəniz" yatağında qazılmış 90, 124 və 125 nömrəli quyulardan alınan nəticələr məhsuldar qatın alt şöbələrində perspektivliyin böyük olduğunu təsdiq edib. Yatağın ikinci tektonik blokunda 123 nömrəli istismar quyusunda qazma işləri başa çatdırılıb. Həyata keçirilən layihəyə əsasən, 2016-2025-ci illərdə "Bulla-dəniz" yatağında 5 yeni özülün quraşdırılması və ümumilikdə 26 quyunun qazılması nəzərdə tutulur.

Bunlar Xəzərin ölkəmizə məxsus sektorundakı perspektiv yataqların heç də hamısı deyil. Prezident İlham Əliyevin dediyi kimi: "Cənub qaz dəhlizi" layihəsinin icrası artıq yeni layihələrə də start verdi. Hazırda növbədə "Böyük Abşeron" layihəsinin işə başlamasıdır. Əslində, işlər başlamışdır. Biz "Abşeron" layihəsindən, - təqribən 350 milyard kubmetr qaz ehtiyatları var, - 2-3 ildən sonra ilk qazı gözləyirik. Eyni zamanda paralel olaraq "Ümid-Babək" və "Dayaz sulu" layihələri də icra edilir. Bu layihələrin də yaxın illərdə fəaliyyətə başlaması, yeni hasilatın başlaması gözlənilir".

Xatırladaq ki, Azərbaycanın ümumi qaz ehtiyatları 2,6 trilyon kubmetr həcmində qiymətləndirilir. Bu isə ölkəmizin başdan-başa qazlaşdırılması işinin tamamlanmasına və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolunun artmasına imkan verəcək. Hazırda ölkədə qazlaşma 93 faizə çatıb. Ən ucqar kəndlərə qədər qaz xətləri çəkilib. Hədəf bütün kəndlərin qazlaşdırılmasıdır. Zəngin yataqlar bütün Azərbaycanı, eləcə də bir sıra digər ölkələri mavi yanacaqla təmin edəcək. Həm də ən azı bir əsr!

***Flora SADIQLI, "Azərbaycan"***

Tarixi - psixoloji oçerk

# Ermənilərin «tərcümeyi-hal»ı

Ermənilər yenə də “narahatdırlar”. Və bu “narahatlıq” onların etnik tarixinin çox dərin qatlarından gəlir. Hər bir etnosun xarakterini, dünyagörüşünü, dünya xalqları içərisindəki mövqeyini (və bu etnoqrafik mühitin yetirdiyi liderləri) formalaşdıran həmin etnosun “təhcümeyi- hal”ıdır. Əlbəttə, haqqında söhbət gedən “tərcümeyi- hal”ı hər hansı etnosa münasibətdə lazımi elmi əsaslarla, kifayət qədər obyektiv və mümkün dərəcədə müfəssəl bir şəkildə təsəvvür etmək elə də asan məsələ deyil. Lakin düşünmək olar ki, ermənilər bu baxımdan müəyyən istisna təşkil etməkdədirlər... Hər şeydən əvvəl ona görə ki, bir sıra etnoslardan (xalqlardan) fərqli olaraq, onlar tarixlərinin, demək olar ki, heç bir dövründə, “tərcümeyi-hal”larının heç bir mərhələsində “təvazökarlıq” etməmiş, bu və ya digər etnosun tarixini lazımi təfsilatı ilə öyrənmək üçün tələb olunandan da artıq sənədlərə imza atmışlar.

Ermənilərin müxtəlif mənşəli böyük siyasi güclərin təzyiqi altında susmağa məcbur qaldıqları zamanlar da olmuşdur, lakin daha çox çığır-bağır salmaqla var-dövlət toplamağa, xüsusi səlahiyyətlər qoparmağa, ehtiyac ucbatından müxtəlif coğrafiyalara səpələnmənin qarşısını alıb bütöv bir ərazidə təmərküzləşməyə üstünlük verdiklərindən “tərcümeyi-hal”larında belə zamanlar o qədər də çox deyil.

Qədim (və mötəbər) tarix kitabları, məsələn, Herodotun “Tarix”i ermənilərin e.ə. II minilliyin sonlarında Balkanlardan köçərək Van gölünün cənub-qərbində məskunlaşdıqlarını göstərir. Hind-Avropa mənşəli olduğu şübhə doğurmayan bu etnosun “yaxın qohum”u olmadığına görə, onun “uşaqlıq dövrü”nün hansı şəraitdə, yaxud mühitdə keçdiyi barədə təsəvvür dumanlıdır. Və həmin təsəvvür dumanlılığı, əslində, ermənilərin eramızın ilk əsrlərində xristianlığı qəbul etməsinə qədər davam edir...Yalnız bir məsələ məlumdur ki, Kiçik Asiyanı işğal edərək Bizans dövləti yaradan (və bütün qədim yerli etnosları sürətlə öz içərilərində əridən) yunanlar eyni siyasəti ermənilərə qarşı da tətbiq etmələrinə rəğmən, onların iradəsini sındıra bilməmişlər. Xristianlığın qriqorian məzhəbini qəbul etməklə etnik ruhu daha da möhkəmlənən ermənilərin yunan təzyiqi altında müxtəlif istiqamətlərdəki missioner köçlərinin ilk addımları, görünür, həmin dövrdə - eramızın ilk əsrlərində atılmışdır. Lakin bu, bütün əhaliyə aid deyildi, ermənilər Van gölünün cənub-qərbində ondan sonra da uzun əsrlər yaşamışlar.

Yunan təzyiqləri altında assimilyasiya olmaq qorxusu (və bundan irəli gələn nifrət) o qədər güclü idi ki, türklərin (səlcuqların) Kiçik Asiyaya (Anadoluya) yürüşləri zamanı ermənilər onların şəxsində öz xilaskarlarını görmüş, türklərsə ermənilərə qayğı ilə yanaşmışlar. Və bu qarşılıqlı münasibət, müəyyən qədər diplomatik xarakter daşısa da, məzmun mahiyyətcə, prinsip etibarilə, səmimi olmuşdur deyə bilərik...

Lakin erməni kilsəsinin (qriqorianlığın) elə ilk əsrlərdən (təbii ki, bu da etnosun mentalitetindən irəli gəlirdi) özünü ruhani liderdən daha çox, siyasi-ideoloji lider kimi aparması (və bu təşəbbüslərində tədricən çox böyük təcrübə qazanması!) “müstəqil erməni hakimiyyəti (dövləti)” ideyasını həmişə gündəmdə saxlayırdı. Erməni dini (və siyasi) liderləri “irsi” olaraq, əsasən, üç paradiqmada mübarizə aparırdılar:

*1) maddi ehtiyaclarını ödəmək üçün münbit şərait axtaran ermənilərin mənəvi-ideoloji birliyini təmin etmək;*

*2) hansı dövlətin təbəəliyində olursa-olsunlar, həmin dövlətdə onlara xüsusi şərait yaratmaq və ya səlahiyyətlər verdirmək;*

*3) müstəqil erməni dövləti qurmaq, heç olmasa (ilk mərhələdə), bu və ya digər güclü dövlət tərkibində (himayəsində) muxtariyyətə nail olmaq.*

Etiraf etmək lazımdır ki, etnosun, demək olar ki, bütün orta əsrlər boyu davam etmiş bu üç paradiqmalı (istiqamətli) mübarizəsini zahirən tamamilə təbii saymaq olar. Hər şeydən əvvəl ona görə ki, tarixdə hər bir etnosun bu cür maraqlarının (və faktiki mübarizəsinin) mövcudluğuna dair çoxlu misallar gətirmək mümkündür... Lakin məsələ burasında idi ki, ermənilərin etnik (milli) birlik (və dövlət müstəqilliyi) uğrundakı mübarizələri reallığa əsaslanmır, öz mənbəyini yalnız “gözəl xəyallar”dan alırdı... İnsan (vətəndaş) potensialı yox, ordu yox, vətən yox Yalnız “gözəl xəyallar”!.. Bu isə etnosu (lap olsun qriqorian kilsəsinin liderliyində), bir tərəfdən, hər kəsi düşmən gözündə görməyə, ikinci tərəfdən, məqsədə çatmaq üçün hər cür hiyləgərliyə əl atmağa təhrik edirdi.

Və ermənilər yeni beynəlxalq tarixi şəraitə - orta əsrlərin sonu, yeni dövrün əvvəllərinə “tərcümeyi-hal”larının onlara bəxş etdiyi belə bir mental keyfiyyətlə gəlib çıxdılar.

Osmanlı, müəyyən qədər də Azərbaycan Səfəvilər dövlətinin şəxsində ermənilərin türklərə münasibətləri birmənalı deyildi: onlara həm hami kimi baxır (itaət edir), həm mümkün qədər çox səlahiyyət (muxtariyyət) qoparmağa çalışır, həm də saraylara yol taparaq müəyyən intriqalar yaratmağa çalışırdılar. Təhlükəsiz, geniş ünsiyyət tələb edən, bir növ, qılıqlı peşələrə (sənətkarlıq, ticarət və s.) meyil etdiklərindən həmin intriqalarda kifayət qədər böyük “uğurlar” da qazanmışdılar. Və bu “uğurlar”ın ən mühümləri “yuxarılar”a xidmət (və yaxınlıq) imkanlarının genişliyi, zəruri məlumatı vaxtında almaq, məqamı əldən buraxmamaq, hər hansı çətinliyə düşəndə isə məharətlə “yazıqlıq” maskası taxmaqdan ibarət idi. Lakin nəzərə almaq lazımdır ki, istər osmanlılar, istərsə də səfəvilər ermənilərin bu “qabiliyyətlər”ini yalnız müəyyən səviyyəyə qədər yaxın buraxır, həddini aşanda yerlərində otuzdururdular. Bu isə təbii ki, onların hüdudsuz (və fantastik) xəyalları qarşısında maneə təşkil etdiyi üçün bir tərəfdən, təsəvvürlərindəki “düşmən” obrazını daha da qatılaşdırır, digər tərəfdən, taktiki “dostlar” axtarmağa təhrik edirdi... Orta əsrlərin sonu, yeni dövrün əvvəllərində isə bu cür “dostlar” artıq əvvəlki dövrlərdəki kimi uzaqda deyildilər... Rusiya XVIII əsrin əvvəllərindən başlayaraq həm Qərbi Avropa dövlətləri, həm də öz maraqları çərçivəsində cənubdakı türk dövlətlərini artıq təhdid edirdi.

“Erməni məsələsi”ndən erməni terrorizminə” (Bakı, 2016) adlı çox dəyərli kitabın müəllifi Tofiq Mustafazadə göstərir ki, “İsrail Ori “erməni məsələsi”ni rus siyasətinin orbitinə gətirdi və Rusiya məhz bu şüarla XVIII əsrin 20-ci illərində Xəzərsahili vilayətlərə yürüşə başladı. Orinin ölümündən sonra bu missiyanı XVIII əsrin əvvəllərindən bəri onunla bir yerdə olan Minas Vardapet həyata keçirməyə başladı. Minas öz fəaliyyəti ilə rusların Cənubi Qafqaza yürüş etməsi məsələsinin aktuallığını itirməsinə imkan vermədi”.

Əlbəttə, düşünmək olmaz ki, I Pyotr ya İsrail Orinin, ya da Minas Vardapetin təklifi, yaxud təkidi ilə hərəkət etdi... Rusiyanın, artıq qeyd olunduğu kimi, öz maraqları kifayət qədər güclü idi. Lakin belə hallar üçün heç də az əhəmiyyət daşımayan bəhanə də öz ayağı ilə gəlib çıxmışdı.

Erməni “missioner”ləri rusların onlara qarşı səmimi olmadıqlarını, əlbəttə, bilirdilər, ancaq ona da şübhə etmirdilər ki, “xidmətlər”i müqabilində Rusiyadan ya Osmanlı, ya da Səfəvi ərazisində “müstəqil erməni dövləti”nin xeyir-duasını alacaqlar. Başqa yol da yox idi... Məzhəb fərqi olsa da, müsəlmanlara qarşı “xristian kartı” da işə yarıyırdı... Bununla belə, ermənilər Qərbi Avropa dövlətlərinə də gedib-gəlir, Rusiyanın “xəyanət” edəcəyi təqdirdə kimin ətəyindən yapışacaqları barədə də düşünürdülər.

“Erməni məsələsi”nin tarix səhnəsinə çıxarılması etnosun öz xəyallarına, xülyalarına nə qədər dərindən inanması ilə yanaşı, bu “məsələ”nin həllində nə qədər israrlı olacaqlarını, heç bir mübarizə üsul və ya formasından əl çəkməyəcəklərini göstərirdi. Tədricən “etnik xəstəliy”ə (“erməni xəstəliyi”nə) çevrilmiş bu sindrom, prinsip etibarilə, müalicə olunmaz bir hala gəldi... Və yeni tarixi şəraitdə - Şərq və Qərbdəki böyük siyasi güclərin dünyanın taleyini həll eləməyə “çalışdıqları” məqamlarda mütəmadi olaraq bu və ya digər məqsədlərlə diplomatik danışıqlar stolu üzərinə itələnməklə gündəmə çıxarıldı. Beləliklə, etnos öz milli mənliyini itirib taleyinə hər an hər kəsin müdaxilə edəcəyi (və bundan ilk növbədə özü faydalanacağı) etnosiyasi obyektə çevrildi.

Etnik münasibətlərin tarix boyu mürəkkəb olduğu Cənubi Qafqazda (Rusiyanın təbiri ilə desək, “Zaqafqaziya”da, yəni, “Qafqaz dağlarının o tayı”nda) emənilərə dövlət qurmaq üçün ərazi verilməsi, hər kəs bilirdi ki, etnosun “xəstəliyi”ni aradan qaldırmayacaq. Nə vaxtsa kilsə tərəfindən beyinlərinə yeridilmiş mücərrəd “dənizdən dənizə Ermənistan” kompleksinin keçirdiyi “təkamül” tarixi də bunun əlaməti idi: Van gölündən Aralıq dənizinə ➤ Van gölündən Qara dənizə ➤ Aralıq dənizindən Qara dənizə... Və nəhayət: Aralıq dənizi - Qara dəniz - Xəzər dənizi “üçbucağı”.

Hər bir ölkənin paytaxtı onun siyasi, inzibati, mədəni mərkəzi olmaqla yanaşı, xalqın mənəvi qürur mənbəyi, dövlətçilik tarixinin möhtəşəm abidəsidir.

Bütün tarixləri boyu məskən axtaran (və heç bir yerdə qərar tuta bilməyən) ermənilərin ölkəsi olmadığına görə, uzun zaman paytaxtları, Mirzə Cəlilin “Usta Zeynal” hekayəsində usta yumorla işarə vurduğu kimi, dövlətçilyi olmadığına görə padşahları təsəvvürə gəlmir.

Qədim tarixləri, bu tarixlərin başdan-başa əfsanələrə, nağıllara, yalanı ilə doğrusunun ayırd edilməsi mümkün olmayan sinxron məkana çevrilmiş məlumatlarını bir tərəfə qoyub yeni tarixin sənədli-sübutlu informasiyalarını nəzərdən keçirək...

İrəvan (Rəvan) şəhərinin tarixi, əsas etibarilə, 1530-cu illərdə onun Azərbaycan Səfəvilər dövləti tərkibində yaradılan Çuxursəd bəylərbəyiliyinin mərkəzi olması ilə başlayır. Və məlumdur ki, İrəvan bəylərbəyliyinin Bədir xan Ustaclı, Şahqulu sultan Ustaclı, Məhəmməd xan Toxmaq Ustaclıdan başlayaraq, demək olar ki, bütün hakimləri Azərbaycan türkləri olmuşlar. Əhalinin əksəriyyəti isə tamamilə təbiidir ki, Azərbaycan türklərindən ibarət idi.

XVI, XVII və XVIII əsrlərdə Səfəvi-Osmanlı müharibələrinin gedişində vaxtaşırı Osmanlı işğalına məruz qalsa da, İrəvan prinsip etibarilə, həmişə Azərbaycan Səfəvi şəhəri kimi tanınmışdır.

İrəvanın yaxınlığında yerləşən, tədricən bütün ermənilərin dini mərkəzinə çevrilən Eçmiadzin (Üçkilsə) monastırının başçılarını - katolikoslarını da müəyyən məsləhətləşmələrlə məhz Çuxursəd bəylərbəyiləri təyin edirdilər ki, bu da monastırın yalnız ruhani mərkəz olması deyil, həm də kifayət qədər böyük təsərrüfat müəssisəsinə çevrilməsi, imkan düşəndə ermənilərin xeyrinə hətta siyasətə də müdaxilə etməsindən irəli gəlirdi. Nə yerli hakimlərin, nə Səfəvi, nə də Osmanlı hökmdarlarının Üçkilsədə və onun ətrafında məskunlaşmış ermənilərə qarşı heç vaxt ədalətsiz münasibət göstərmədiklərini tarixi mənbələr dönə-dönə təsdiq etsə də, ermənilərin öz hamilərinə xəyanəti, satqınlığı barədə məlumatlara çox tez-tez rast gəlinir.

Çuxursəd bəylərbəyiliyi Nadir şahın qətlindən sonra xanlıq elan edilir. Və xanlıq taxtında Pir Mahmud xan əyləşir.

Xanlığın ərazisi xeyli geniş olub on beş mahala bölünmüşdü: 1) Qırxbulaq, 2) Zəngibasar, 3) Gərnibasar, 4)Vedibasar, 5) Şərur, 6) Suzan, 7) Dərək, 8) Saatlı, 9) Tala, 10) Seyidli-Axaclı, 11) Sərdarabad, 12) Qərpi, 13) Abran, 14) Dərəçisək və 15) Göyçə.

Bəylərbəyilik dövründə olduğu kimi, xanlıq dövründə də ermənilər provakasiyalarından nəinki əl çəkir, hətta mərkəzi hakimiyyətlə əlaqənin zəifləməsindən (Nadir şahdan sonra mərkəzdə tez- tez hakimiyyət dəyişmələri baş verirdi) istifadə edib onun (provakasiyaların) miqyasını daha da genişləndirirdilər, daha böyük iddialara düşür, yerli əhalini sıxışdırmaq üçün hər cür təbdbirlərə əl atırdılar.

Azərbaycan tarixçiləri Fuad Əliyevlə Urfan Həsənovun mövcud (və kifayət qədər zəngin) mənbələr əsasında yazdıqları “İrəvan xanlığı” kitabında deyilir:

“Ermənilərin bu dini mərkəzinin (söhbət Eçmiadzin-Üçkilsədən gedir - N.C.) qol-qanad açmasına, adətən, həmin bölgədə daimi hakim olan azərbaycanlı feodallar şərait yaradırdılar... Eçmiadzin monastır təsərrüfatı inkişaf edərək, XVIII əsrdə bir növ, “dövlət daxilində dövlətə” çevrilmişdi”.

Tədricən İrəvana da ayaq açan (daha çox tacir, xırda sənətkar, işbaz kimi) ermənilər sarayda müəyyən mövqe tutmağa çalışır, hətta hakimiyyətdə təmsil olunmağa can atır, fürsətdən istifadə edib “xristian qardaşlar”ı - gürcüləri İrəvana “dəvət etmək”dən də çəkinmirdilər. İş o yerə gəlib çatmışdı ki, bəzən İrəvan xanları hədər yerə qan tökülməməsi üçün gürcülərin İrəvana yürüşünün qarşısını almaqdan ötrü Üçkilsə başçılarının vasitəçiliyindən istifadə etməyə məcbur olurdular.

“İrəvan xanlığı” müəllifləri yazır:

“Düşmən qüvvələri İrəvandan uzaqlaşdıqdan sonra xana çatdırıldı ki, II İraklinin qoşunları İrəvana yaxınlaşdıqları zaman şəhərdə olan bir sıra erməni ailələri “xristianların” İrəvanı almalarını arzulamışlar. Bundan xəbər tutan Hüseyn Əli xan həmin ermənilərə divan tutmağı qərara aldı”.

Məsələ burasındadır ki, “satqın ermənilər”in cəzalandırılması heç zaman xanlığın təhlükəsizliyini təmin edəcək səviyyəyə qalxmır, Üçkilsənin - “dövlət daxilində dövlət”in müdaxiləsi ilə yumşaldılır, gələcək daha böyük xəyanətlər üçün münbit (və qarşısıalınmaz) zəmin hazırlayırdı.

Rusların Qafqaza işğalçı yürüşlərinin başladığı XVIII əsrin sonu XIX əsrin əvvəllərində onların qarşısında dayanan əsas qüvvə Qacarların idarə etdiyi İran (mahiyyəti etibarilə Azərbaycan) dövləti idi. Və demək olar ki, bütün Cənubi Qafqazın idarəçiliyi Qacarların əlində cəmlənmişdi. Yerli hakimlər (xanlar, eləcə də Gürcüstan valisi) artıq Şimali Qafqazda möhkəmlənmiş, lakin Mərkəzi Qafqazın (dağlıların) güclü müqavimətilə üzləşmiş ruslara az və ya çox dərəcədə simpatiya göstərəndə Qacarların qəzəbinə tuş gəlir, ciddi cəzalandırılırdılar ki, bunun klassik nümunəsi 1795-ci ildə Tiflisin darmadağın edilməsi idi.

Həmin illərdə əsasən Qafqazın cənubundakı təhlükəsiz yerlərə səpələnərək ticarətlə məşğul olan (və özlərinə siyasi dayaq axtaran) ermənilər həm yerli hakimiyyətlərlə “diplomatik” münasibətlərini saxlamağa çalışır, həm də real (və kifayət qədər qüdrətli) güc olan Rusiyanın himayəsinə girməyə cəhd edirdilər. Lakin ruslar Cənubi Qafqazda (və ümumiyyətlə, heç yerdə) heç bir siyasi-inzibati hakimiyyəti və ya nüfuzu olmayan ermənilərə ilk dövrlərdə yalançı vədlər verməkdən, onların xəfiyyəlik məharətindən faydalanmaqdan o tərəfə keçmək fikrində deyildilər.

1801-ci ildə Gəncəni çətinliklə də olsa, zəbt edən gürcü əsilli rus generalı Sisianov 1804-cü ildə İrəvanı tutmaq əmri aldı. Ancaq İrəvan xanı ruslara nəinki tabe olmaq fikrinə düşdü, hətta onlara mənbələrin göstərdiyi kimi, çox sərt məktublar yazıb tələb etdi ki, yalnız İrəvan xanlığının yox, ümumiyyətlə, İranın sərhədlərini tərk etsinlər. Əsəbləşmiş Sisianov bir sıra döyüşlərdən sonra iyulun əvvəllərində İrəvanı mühasirəyə alsa da, payız girənə qədər davam edən həmin mühasirə heç bir nəticə vermədiyindən get- gedə gücdən düşən ruslar geri çəkildilər.

Sisianovun başı Bakıda kəsilib Tehrana - Fətəli şah Qacara göndərildikdən sonra onu əvəz edən İvan Vasilyeviç Qudoviç 1807-ci ildə İrəvan üzərinə yeridi. Və İrəvanın müdafiəçilərinə belə bir iddialı müraciət göndərdi: “O vaxt qoşuna hələ döyüş sənətində o qədər də təcrübəli olmayan, gənc generallardan biri Sisianov başçılıq edirdi, indi isə komandanı mən verirəm, güclü rus ordularını otuz ildən çox öz arxasınca aparan “adam”...

Ancaq ruslar İrəvanı işğal edə bilməyib biabırcasına məğlub oldular. Qış düşdükcə güclənən şaxta onların əhədini kəsdi, Qudoviçin bir gözü tamamilə tutuldu.

Və düşmən böyük itki verib geri çəkilməli oldu.

Yermolovdan sonra Qafqaza Paskeviç göndərildi. Peterburq onun qarşısına təxirəsalınmaz bir tələb qoymuşdu: İrəvanı tutmaq.

İrəvanı ruslar kənardan belə təsvir edirdilər:

“Qala quru tərəfdən dərin, su ilə dolu xəndəklə əhatəyə alınmışdı. Divarların arxasından çoxsaylı məscidlərin günbəzləri, minarələri iynə kimi nazik qübbələri görünür”.

İrəvana girmək üçün əvvəlcə Sərdarabad qalasını almaq lazım gəlirdi. Qalanın (və şəhərin) müdafiəsinə isə vaxtilə Sisianovu, Qudoviçi geri oturtmuş sərdar Həsən xan başçılıq edirdi.

1827-ci ilin sentyabrında Paskeviçin əmri ilə rus qoşunu İrəvanı artilleriya atəşinə tutdu. Şəhər qəddarcasına darmadağın edilir, evlər, məscidlər uçub əhalinin başına tökülürdü.

Ancaq İrəvan düşmənə təslim olmaq istəmirdi.

Və nəhayət, Paskeviç sona qədər əzmlə müqavimət göstərən şəhəri aldı. Ruslara son güllləni atan Həsən xan tərksilah edildi.

İrəvan alındıqdan sonra elə şəhərin qapıları ağzında işğalçı orduya Paskeviçin əmr-müraciəti oxunmuşdu. Və orda deyilirdi:

“...Siz çarın şöhrəti, rus silahının şərəfi üçün çox çalışdınız... Rusiya sizə minnətdar olacaqdır ki, onun böyüklüyünü və möhtəşəmliyini müdafiə etdiniz”...

Mənbələr bir- birinin ardınca məlumat verir ki, Azərbaycan türkləri İrəvanı, ümumiyyətlə, Cənubi Qafqazı təbii bir Vətən təəssübkeşliyilə müdafiə edəndə Paskeviçin bütöv bir dəstə erməni casusu vardı ki, ruslara xəbərçilik etməklə məşğul idilər. Gürcülərə gəldikdə isə onlar “pravaslav qardaşlığı”nı dəstəvuz edib, elə əvvəldən Qafqazın bütün qapılarını Rusiya imperiyasının üzünə açmışdılar. Çünki Qacarlar gah dağılan, gah da müvəqqəti birləşən Gürcüstanı sonacan təsir altında saxlaya bilməmişdilər.

1828-ci ilin fevral ayının 9-dan 10-na keçən gecə imzalanan Türkmənçay müqaviləsi İrəvan (eləcə də Naxçıvan) xanlığının Rusiyaya keçdiyini təsdiq etdi.

Qafqazın harasında sakitlik oldusa, ermənilər orada (xüsusilə ticarət üçün şərait olan şəhərlərdə) məskunlaşmağa başladılar. Ənənəvi etnik vərdişlər sistemindən və ya arxetipdən gələn bu psixologiya ermənilərin yeni tarixi şəraitdə də Vətən iddialarının məzmununu, hüdudlarını təsdiq etmiş oldu. Çar I Nikolaya erməni irəligələnlərinin təqdim etdikləri Rusiya tərkibində “erməni dövləti” layihələri oyununun axırı onunla nəticələndi ki, çarın 21 mart 1828-ci il tarixli fərmanı ilə keçmiş İrəvan və Naxçıvan xanlıqları ərazisini əhatə edən “Erməni vilayəti” yaradıldı. Və həmin vilayəti erməniləşdirmək məqsədilə buraya İrandan qırx min erməni köçürüldü. Lakin “Erməni vilayəti” çox yox, 1850-ci ildə İrəvan quberniyası təşkil edilənə qədər mövcud oldu. İrəvanın (və keçmiş İrəvan xanlığının ərazisinin) zorla erməniləşdirilməsi prosesi tamamilə təbii olaraq, çox uzun sürdü.

Regional (və beynəlxalq) siyasi maraqlar XX əsrin əvvəllərində ermənilərə mərkəz (paytaxt) olaraq hər hansı başqa bir yeri deyil, məhz İrəvanı seçdi ki, bu, əslində, tarixin ironiyası idi. Necə ola bilər, Azərbaycan türklərinin yaradıb qanları bahasına düşməndən dəfələrlə tarixin gözləri qarşısında müdafiə etdikləri şəhər onu hər addımda satan bir topluma bağışlansın, həmin toplum isə bu şəhərin sahiblərini öz yurd-yuvasından həyasızcasına didərgin salıb öz yerlərini möhkəmləndirsinlər?.. Odur ki, belə bir sual yalnız onların havadarlarını yox, eyni zamanda, özlərini də həmişə narahat etməli olacaqdır ki, İrəvanı öz paytaxtları saymağa ermənilərin mənəvi haqları varmı?..

Keçən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində - SSRİ-nin dağıldığı illərdə erməni millət vəkillərinin Moskvanı, xüsusilə dövlət başçısı M.S.Qorbaçovu necə həyasızlıqla hədələdiyi, yəqin ki, heç də hamı tərəfindən unudulmamışdır... Həmin vəkillərin simasında ümumən etnosun daxili aləmini - həyəcanlarını, əsrlərcə üst-üstə qalanmış, süxurlaşmış emosiyalarını görmək mümkün idi. Və açıq şəkildə görünürdü ki, ermənilər Moskvadan - Rusiyadan incimişlər... Onlar bu qənaətdə idilər ki, göstərdikləri “xidmətlər”in müqabilində istəklərini nəinki tam təmin etməmiş, hətta “gələcəklər”ini də təhlükə altında qoymuşlar. Və Moskvanın “himayə”sinin o qədər də möhkəm olmamasından narazılıq edən “sima”lar hiss etdirirdilər ki, daha etibarlı “himayəçilər” də axtarmaq fikrindədirlər. Ancaq M.S.Qorbaçov (və Moskva) yaxşı bilirdi ki, həmin “axtarışlar” həmişə mövcud olmuşdur. Yeni bir şey deyil...

Ermənilərin müstəqil bir etnos olaraq bugünkü xarakteristikasını az- çox obyektiv təsəvvür etməyə çalışsaq, belə bir mənzərə alınar: mənşəyinin təfsilatı məlum olmayan, özünütəsdiq tarixini normal (bütün etnoslar üçün ümumi - təbii olan) etnik özünüdərk prosesi olaraq deyil, qriqorian kilsəsinin güclü təzyiqi altında yaşamış, dövlət quruculuğu təcrübəsindən məhrum və taleyi böyük güclərin, beynəlxalq münasibətlərin konyunkturuna buraxılmış, xülyalarla yaşayan, taleyindən həmişə narahat (və bütün bunlarla yanaşı, iddialı!) bir xalq...

***Nizami CƏFƏROV,***
***akademik***

Yeni nəşrlər

# Hüquq elminə dəyərli töhfə

## *Professor Əmir Əliyevin “Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil” kitabı beş dildə çapdan çıxıb*




Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru, professor Əmir Əliyevin müəllifi olduğu və beş dildə - Azərbaycan, fransız, ingilis, rus və türk dillərində çap edilmiş “Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil” kitabında Azərbaycan dövlətçiliyinə və xalqına qarşı ermənilər tərəfindən törədilən, hazırda da Ermənistan tərəfindən davam etdirilən beynəlxalq cinayətlərin hüquqi təhlili aparılıb. Giriş, 6 fəsil və nəticədən ibarət olan kitabın rəyçiləri Ukrayna, Qazaxıstan, Rusiya, Gürcüstan, İran, Türkiyə və digər dövlətlərin beynəlxalq hüquq üzrə tanınmış alimləridir.

Girişdə qeyd edilir ki, ermənilərin xalqımıza qarşı XIX əsrdən başlayan, XX əsrdən isə sürətlənən təcavüzkarlıq və soyqırımı siyasətinin dünya ictimaiyyətinin gözü qarşısında davam etməsi beynəlxalq əməkdaşlıq siyasətinə ağır zərbələr vurmaqdadır. Bu hadisələrə dünyanın mütərəqqi qüvvələrinin biganə qalması, son nəticədə beynəlxalq hüququn fəaliyyətsizliyi təəssüfləndirici hal kimi qeyd olunur. Ulu öndər Heydər Əliyevin 1997-ci ildə imzaladığı “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərmanında azərbaycanlıların tarixi-etnik torpaqlarından ədalətsiz deportasiya siyasətinə ilk dəfə dolğun hüquqi-siyasi qiymət verilmişdir. Növbəti fərman 1998-ci ilin 26 martında olmuşdur - “Azərbaycanlıların soyqırımı haqqında”. Burada da erməni millətçilərinin əməllərinə hərtərəfli hüquqi-siyasi qiymət öz əksini tapmışdır. Nəhayət, “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” 18 yanvar 2018-ci il tarixli Prezident İlham Əliyevin imzaladığı sərəncamda isə qeyd edilir ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik “Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər.

Bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət xətti və atılan əməli addımlar təcavüzkar Ermənistanı bir daha işğalçılıq hərəkətlərinə son qoymağa, münaqişəni dinc yolla həll etməyə dəvət edir.

Kitabda Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da sözlərinə istinad edilmişdir: “Bizim heç bir başqa millətin, başqa xalqın torpağında gözümüz yoxdur. Biz, sadəcə, öz torpaqlarımızı işğaldan azad etmək istəyirik. Bu həqiqəti bütün dünya bilir və artıq qəbul etməlidir Mən əminəm ki, ədalət bərpa olunacaq. Azərbaycan torpaqları işğaldan azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq”.

BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq Azərbaycanın özünümüdafiə hüququnun mövcudluğuna baxmayaraq, dövlətimiz beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına sadiqliyini bir daha göstərərək, daim sülhsevər və müharibədən imtina siyasətini saxlayır, dünyada və regionda sülh naminə bütün mümkün kompromis variantları təklif edir. Ermənistan isə ikili standartlarla pərdələnərək özünün işğalçılıq və hələ də beynəlxalq cinayətlər törətmək siyasətindən əl çəkmir.

Kitabdakı təhlillər əsasən xarici alimlərin əsərlərinə, ermənilərin öz mənbələrinə, geniş beynəlxalq müqavilələrə və beynəlxalq müqavilə praktikasına əsaslanmışdır. Müəllif vətəndaşlıq mövqeyindən çıxış edərək göstərir ki, bu gün də cəmiyyətimiz tərəfindən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında və ölkəmizə qarşı həyata keçirilən ədalətsiz siyasətə son qoymağa nail olmaqda genişmiqyaslı fəaliyyət tələb edilir. Professor Əmir Əliyev yazır: “Odur ki, bir hüquqşünas alim olaraq bizlər də bu məsələyə biganə qala bilmərik. Məhz bu baxımdan tədqiqatın nəticələrini müxtəlif dillərdə çap etdirərək problemin hüquqi təhlilini verib əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmağa çalışmışam, bununla da onları bu məsələdə ədaləti qorumağa və beynəlxalq hüququn bərqərar olması istiqamətində fəaliyyət göstərməyə dəvət edirik”.

Birinci fəsil “Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüququn prinsipləri kontekstində” adlanır və burada Ermənistan tərəfindən ciddi pozuntulara məruz qalmış bütün prinsiplər ayrı-ayrılıqda geniş təhlil və izah olunur. Əsas prinsiplər BMT Nizamnaməsində təsbit olunmuşdur və əksər hallarda BMT Nizamnaməsinin prinsipləri adlanır. Onların məzmunu və sistemi isə BMT Baş Assambleyasının 1970-ci il tarixli “BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında” Bəyannamədə müəyyən edilmişdir. Həmin bəyannamədə beynəlxalq hüququn 7 mühüm prinsipi əks olunmuşdur: güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipi; beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi; dövlətlərin suveren bərabərliyi prinsipi; dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi; dövlətlərin əməkdaşlığı prinsipi; xalqların hüquq bərabərliyi və özünümüəyyənetmə prinsipi; beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi. 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Helsinki Yekun Aktında isə beynəlxalq hüququn 3 mühüm prinsipi də təsbit olunmuşdur: dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipləri.

Kitabda Ermənistan tərəfindən Azərbaycan dövlətinə və xalqına qarşı törədilmiş beynəlxalq cinayətlər ilk növbədə, həm də beynəlxalq hüququn *jus cogens* normaları sayılan ümumi prinsiplərin ciddi, kobud və sistematik pozuntusu hesab edildiyindən, onların ətraflı təhlili vacib hesab edilmişdir. Aparılan təhlillər onu göstərir ki, Ermənistan bu gün beynəlxalq hüququn bütün 10 prinsipini kobud və sistemli şəkildə pozur. Beləliklə də bu dövlət özünün beynəlxalq müqavilə xarakterli öhdəliklərinə heç bir halda əməl etmək istəmir.

İkinci fəsil təcavüz cinayətinə həsr edilmişdir. Ermənistanın apardığı məqsədyönlü təcavüz siyasəti nəticəsində (1990-1992-ci illərdə) Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ bölgəsi (1991-ci ilədək Azərbaycanın inzibati ərazi bölgüsünə əsasən - Şuşa, Xocavənd, Əsgəran, Hadrut, Ağdərə rayonları və Xankəndi daxil olmuşdur) işğal edilmişdir.

Kitabda “təcavüz” cinayətinin beynəlxalq-hüquqi tövsifi ilə bağlı məsələlərə xüsusi diqqət yetirilmiş, BMT Baş Assambleyasının 1974-cü il tarixli “Təcavüzün tərifi haqqında” 3314 nömrəli Qətnaməsi və digər beynəlxalq sənədlər ətraflı təhlil edilmişdir. Nəticələrə gəldikdə isə bildirilmişdir ki, təcavüzlə bağlı BMT Baş Məclisi tərəfindən qəbul edilmiş 1974-cü il qətnaməsinin bütün bəndləri Ermənistan tərəfindən kobud və sistemli şəkildə pozulmuş, hazırda da pozulmaqdadır. Digər tərəfdən, Ermənistanın Dağlıq Qarabağdan başqa, orada tarixən bir erməni belə yaşamayan Azərbaycanın 7 rayonunu işğal etməklə bufer zona yaratmaq ideyasını beynəlxalq hüquq heç vaxt qəbul edə bilməz.

Kitabda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının təhlili də öz əksini tapmışdır. Üçüncü fəsil ermənilərin törətdikləri soyqırımı cinayətinə həsr edilmişdir. Qeyd edilir ki, erməni cinayətkarları tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin həyata keçirilməsi zaman-zaman davam edərək yüksələn xətt üzrə özünün “inkişafı”na doğru irəliləmişdir. Bu zaman XX əsrdə azərbaycanlılara qarşı ermənilərin etnik təmizləmə siyasəti dörd mərhələ üzrə nəzərdən keçirilir: 1905-1907-ci illəri əhatə edən birinci mərhələ; 1918-1920-ci illəri əhatə edən ikinci mərhələ; 1948-1953-cü illəri əhatə edən üçüncü mərhələ; 1988-1993-cü illəri əhatə edən, müasir dövr üçün azərbaycanlılara qarşı soyqırımı, ərazi iddiaları və hərbi təcavüz üçün geniş zəmin yaratdığı dördüncü mərhələ.

***Ardı 6-cı səh.***

# Azərbaycan Hökuməti ilə Dünya Səhiyyə Təşkilatı arasında birgə bəyanat imzalanıb



İyulun 5-də Azərbaycan Hökuməti ilə Dünya Səhiyyə Təşkilatı arasında birgə bəyanat imzalanıb.

AZƏRTAC xəbər verir ki, bəyanatı Bakıda keçirilən "Dayanıqlı İnkişaf Məqsədlərinin icrası kontekstində səhiyyə islahatları" mövzusunda konfransda səhiyyə naziri Oqtay Şirəliyev və Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus imzalayıblar.

Konfransda çıxış edən Oqtay Şirəliyev deyib ki, 2015-ci ilin sentyabrında dünya liderləri bəşəriyyəti tərəqqiyə aparan hədəfləri - yeni Dayanıqlı İnkişaf Məqsədlərini qəbul ediblər. Dayanıqlı İnkişaf Məqsədləri nəticəsində milyonlarla insanın həyat tərzində mühüm dəyişikliklər baş verib. Yoxsulluğun azaldılması, keyfiyyətli içməli su mənbələrinə çıxışın təmin olunması, yoxsul təbəqənin həyat səviyyəsinin yaxşılaşdırılması, gender bərabərliyi kimi hədəflərə nail olunub.

Bildirilib ki, son 25 il ərzində dünyada 5 yaşadək uşaq ölümü yarıya enib və qlobal səviyyədə ana ölümü təqribən iki dəfə azalıb. Hazırda əhalinin çox böyük hissəsi immunçatışmazlığı virusu infeksiyasına qarşı antiretrovirus müalicəsinə cəlb edilir, halbuki indiyə qədər heç vaxt belə mütəşəkkil kampaniya aparılmayıb. Malyariyaya qarşı qəti mübarizənin genişlənməsi nəticəsində həmin xəstəlikdən hər il 6 milyon nəfərin ölümünün qarşısı alınıb.

Diqqətə çatdırılıb ki, ölkəmizdə də Minilliyin İnkişaf Məqsədlərinin tətbiqi dövründə ifrat yoxsulluq aradan qaldırılıb, mütləq yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə qədər azaldılıb, məktəblərə qeydiyyat dərəcəsi 100 faizə çatdırılıb, gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətlərinin artırılmasında inkişafa nail olunub. Hər yeni doğulan 1000 körpə arasında 5 yaşadək uşaq ölümü göstəricisi 28-dən 12,8-ə enib, ana ölümü əhəmiyyətli dərəcədə azalıb, yoluxucu və digər xəstəliklərə qarşı mübarizə gücləndirilib, o cümlədən malyariyanın qarşısı tamamilə alınıb. Ətraf mühitin mühafizəsi üçün qlobal tərəfdaşlıq üzrə mühüm irəliləyişlər əldə edilib.

Nazir Prezident İlham Əliyevin Azərbaycanda səhiyyə sahəsinin inkişafına xüsusi diqqət göstərdiyini və bunun məntiqi nəticəsi kimi tibb sahəsinin gündən-günə inkişaf etdiyini, tibb müəssisələrinin əksəriyyətinin müasir avadanlıqlarla təchiz olunduğunu bildirib. "Azərbaycanda infeksion xəstəliklər hazırda yox səviyyəsindədir. Artıq iki ildir ki, ölkəmizdə malyariya xəstəliyinə rast gəlinmir. Göyöskürək və parasitar xəstəlikləri demək olar ki, aradan qaldırılıb. Bu, Azərbaycan səhiyyəsinin uğurudur. Biz həmişə Dünya Səhiyyə Təşkilatının tövsiyələrini dinləyir, qurumun ölkəmizə göstərdiyi dəstəyi hiss edirik", - deyə nazir qeyd edib.

Baş direktor Tedros Adhanom Qebreyesus ölkəmizə səfərindən məmnunluğunu ifadə edib. O, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edildiyi dövrə təsadüf edən bu səfərin onun üçün sevindirici olduğunu vurğulayıb. İcbari tibbi sığorta və onun tətbiqi haqqında danışan direktor Azərbaycanda icra edilən pilot layihələrdən xəbərdar olduğunu söyləyib. Baş direktor ilkin tibbi xidmətin canlandırılması və icbari tibbi sığortanın tətbiqinin genişləndirilməsi üçün Dünya Səhiyyə Təşkilatının mütəxəssislər göndərməyə hazır olduğunu bildirib.

Qeyd olunub ki, Azərbaycanda tətbiq edilən icbari sığorta modeli təqdirəlayiqdir və həmin modelin digər ölkələrdə də tətbiqi məqsədəuyğundur.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Gənclər və idman naziri Azad Rəhimov iyulun 5-də Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Sumqayıt şəhərinin və Abşeron, Xızı, Şamaxı, Qobustan rayonlarının sakinlərini qəbul edib.

Qəbulda ümumilikdə 20-yə yaxın sakinin müraciətləri dinlənilib. Gənclər sahəsinə aid müraciətlər əsasən, qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti məsələləri ilə bağlı olub.

İdman sahəsi üzrə isə fəxri adların verilməsi, idman mərkəzlərinin avadanlıqla təminatı, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələlərlə bağlı müraciətlər edilib.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 5-də Lənkəranda Astara, Lerik və Lənkəran rayonlarının sakinlərini qəbul edib.

Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində baş tutan qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

***AZƏRTAC***

# Milli Onkologiya Mərkəzində Dünya Səhiyyə Təşkilatının baş direktoru ilə görüş keçirilib



İyulun 5-də Milli Onkologiya Mərkəzinin (MOM) baş direktoru akademik Cəmil Əliyev ölkəmizdə səfərdə olan Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru doktor Tedros Adhanom Qebreyesus ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdən əvvəl DST-nin baş direktoru və onu müşayiət edən şəxslər MOM-un Uşaq Onkoloji Klinikasında şüa terapiyası, reanimasiya və intensiv terapiya şöbələrinə baş çəkiblər. Onlar xəstələrin müalicəsində tətbiq edilən müasir avadanlıqla tanış olub, müalicə proseslərini izləyiblər.

Görüşdə akademik Cəmil Əliyev qonaqlara MOM-un elmi-klinik fəaliyyəti haqqında ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində mərkəz yeni tibb texnikası, o cümlədən mobil diaqnostika kompleksi ilə təchiz edilib. Həmçinin onkoloji xəstələrin şiş əleyhinə preparatlarla təmin olunmasında problemlər aradan qaldırılıb. Mərkəzin əməkdaşları yüksək keyfiyyətli onkoloji xidmətlər göstərir, xəstələrdə bədxassəli şişlərin erkən diaqnostikasını, operativ cərrahi, şüa və dərman preparatları ilə müalicəsini həyata keçirir, habelə mövcud müalicə üsullarının təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı elmi tədqiqatlar aparırlar. MOM-un müasir standartlara cavab verən və yaraşıqlı korpusu ən müasir tibbi avadanlıqla təchiz olunub. Hazırda Milli Onkologiya Mərkəzi respublikanın əhalisinə yüksəkixtisaslı onkoloji yardımın həyata keçirilməsində elmi-metodik və profilaktik işlərin koordinasiyası ilə məşğul olan əsas qurumdur.

Baş direktor deyib ki, burada aparılan müalicənin əsas məqsədi xəstələrin ömrünün uzadılması, imkan daxilində onların tam şəfa tapmasıdır. Məlumat verilib ki, 1200 yerlik mərkəz müasir standartlara cavab verən tibbi avadanlıq və ləvazimatlarla təchiz olunub, xəstələrin 35 faizi onkoloji, qalan 65 faizi isə diaqnostik göstəricilər üzrə müalicə alır.

Akademik Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın MOM-un Uşaq Onkoloji Klinikasının yaradılmasında müstəsna xidmətlərini də vurğulayıb.

Diqqətə çatdırılıb ki, son illər MOM onkoloji xəstələrin müalicəsi üçün zəruri olan yeni texnologiyalar istehsal edən dünyanın aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir. Belə ki, 2014-cü il oktyabrın 8-də MOM və bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyaları hazırlayan və istehsal edən ABŞ-ın "Varian Medikal Sistem" şirkəti arasında əməkdaşlıq sazişi imzalanıb. Bununla da Milli Onkologiya Mərkəzi rəsmi referens-mərkəz statusuna malik olub. İmzalanmış sənəd tərəfdaşlar arasında əməkdaşlığın genişləndirilməsinə, daha qısa müddətə Azərbaycana müasir texnologiyaların gətirilməsinə, xarici mütəxəssislərlə ətraflı fikir mübadiləsi aparılmasına imkan verir. Həmçinin saziş Milli Onkologiya Mərkəzində onkoloji xəstələrə göstərilən yüksək səviyyəli xidmətin dünyanın digər aparıcı klinikaları tərəfindən tanınmasını təsdiq edir. Bundan başqa, 2015-ci ilin noyabrında Azərbaycan MOM və M.D.Anderson adına Onkoloji Mərkəz (USA, MD Anderson Cancer Center), 2017-ci ilin oktyabrında isə şüa terapiyası zamanı xəstələrin cəlb olunması və yerləşdirilməsini təmin edən sistem və avadanlığın dünyada ən iri təchizatçısı olan Belçikanın "Orfit Industries" şirkəti arasında uzunmüddətli əməkdaşlığa dair müqavilələr imzalanıb.

DST ilə Azərbaycan arasında bir sıra mühüm sahələrdə əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə edən Tedros Adhanom Qebreyesus əlaqələrin gələcəkdə də genişləndirilməsinin zəruriliyini diqqətə çatdırıb. DST-nin baş direktoru qeyd edib ki, Milli Onkologiya Mərkəzində onkoloji xəstələrin yüksək səviyyədə müalicəsi üçün yaradılmış müasir şərait dünya standartlarına tam cavab verir. O, burada onkoloji xəstəliyin profilaktikası və müalicəsi üzrə aparılan işləri yüksək qiymətləndirib. "Zəngin maddi-texniki bazaya və güclü kadr potensialına malik Milli Onkologiya Mərkəzini dünyanın aparıcı onkoloji mərkəzləri ilə bir cərgəyə qoymaq olar. Bu gün mən Uşaq Onkoloji Klinikasına baş çəkdim və burada qorxulu xəstəlikdən əziyyət çəkən yeddi-səkkiz yaşlı oğlanla tanış oldum. Bu uşaqla qısa ünsiyyət zamanı mən onun barəsində çox şey öyrəndim: o, ruhdan düşmür və tam müalicə olunacağına inanır, hətta gələcəkdə polis əməkdaşı olmaq istəyir. Bildiyimiz kimi, bir çox valideyn öz uşağının xəstəliyi xəbərinə dözə bilmir. Onlar bu xəbəri aldıqda gələcəkdə nə edəcəklərini və necə yaşayacaqlarını bilmirlər. Lakin sizin həkimlərlə söhbət əsnasında öyrəndim ki, onlar uşaq onkologiyası şöbəsinə gəldikləri zaman müalicə aparıldığını və səhhəti yaxşılaşanları görürlər. Mən onlara ümid və mübarizə aparmağa güc verdiyiniz üçün Sizə və MOM kollektivinə minnətdaram", - deyə DST-nin baş direktoru əlavə edib.

Görüşdən sonra doktor Tedros Adhanom Qebreyesus Milli Onkologiya Mərkəzinin muzeyi ilə tanış olub, MOM-un fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Görüşdə Azərbaycan Respublikasının BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov iştirak edib.




**DÇ-2018-in TƏQVİMİ**

**6 iyul**

***1/4 FİNAL***

18:00. Uruqvay - Fransa
*Nijni Novqorod stadionu*

22:00. Braziliya - Belçika
*Kazan Arena*

# 1/4 finalda hakim təyinatları



DÇ-2018-in 1/4 finalının oyunlarına hakim təyinatları açıqlanıb. Matçlar aşağıda adları qeyd olunan hakimlərə həvalə edilib:

**6 iyul**

**18:00. Uruqvay - Fransa**

*Hakimlər: Nestor Pitana, Hernan Maydana, Xuan Belatti (hamısı Argentina), Əlireza Fəqani (İran)*

**22:00. Braziliya - Belçika**

*Hakimlər: Milorad Majiç, Milovan Ristiç, Dalibor Curceviç (hamısı Serbiya), Ceyr Marrufo (ABŞ)*

**7 iyul**

**18:00. İsveç - İngiltərə**

*Hakimlər: Byörn Kuypers, Sander van Rokel, Ervin Zeynstra (hamısı Hollandiya), Antonio Miqel Mateu Laos (İspaniya)*

**22:00. Rusiya - Xorvatiya**

*Hakimlər: Sandro Riççi, Emerson de Karvalyo, Marsello van Qasse (hamısı Braziliya), Yanni Skazve (Zambiya)*




Uruqvay millisinin futbolçusu Edinson Kavani DÇ-2018-in 1/4 finalında Fransa ilə oyunu buraxacaq. "L`Equipe" nəşrinin verdiyi xəbərə görə, 31 yaşlı hücumçu bu matça kimi zədəsini bərpa edə bilməyəcək. Hazırda fərdi qaydada məşq edən E.Kavani komanda ilə hazırlıqlara qoşulmayıb.

Qeyd edək ki, E.Kavani 1/8 finalda Portuqaliyaya qarşı görüşdə (2:1) zədələnib.




Argentina futbolunun canlı əfsanəsi Diyeqo Maradona DÇ-2018-in 1/8 final mərhələsinin İngiltərə - Kolumbiya oyununun baş hakimi Mark Qeyqerin idarəçiliyini tənqid edib.

Qol.az-ın xarici KİV-ə istinadən yaydığı xəbərə görə, veteran futbolçu amerikalı hakimi oğru adlandırıb: "İlk dəfə İnfantino ilə danışanda düşündüm ki, FİFA-da hər şey dəyişəcək. Ancaq İngiltərə - Kolumbiya oyununda möhtəşəm quldurluq gördüm. Bu hakim beysbolda yaxşı baş çıxardar, amma futboldan heç nə anlamır. O, oğrudur".

Qeyd edək ki, Mərakeş millisinin üzvü Nordin Amrabat da M.Qeyqeri sərt tənqid etmişdi. O, hakimi Ronaldonun oyunundan təsirlənməkdə və portuqaliyalı ulduzdan forma istəməkdə ittiham etmişdi.




Kolumbiya millisinin üzvləri Karlos Bakka və Mateus Uribe ölümlə təhdid olunublar.

Xarici KİV-in verdiyi xəbərə görə, kolumbiyalı fanatlar DÇ-2018-in 1/8 final mərhələsinin İngiltərə ilə oyununda penalti zərbələrini dəqiq yerinə yetirməyən oyunçuları öldürməklə hədələyiblər. Azarkeşlər onları ölkəyə qayıtmamağa çağırıb və hər ikisinə ölüm arzulayıblar.

# Azarkeş cərimələndi

Argentinalı azarkeş Raul Surqbrixen bilet satışı ilə məşğul olduğu üçün məsuliyyətə cəlb olunub. Sankt-Peterburq məhkəməsi onun haqqında yekun qərar verib.

Raul Surqbrixen 543 min rubl məbləğində cərimələnib. Məlumata görə, argentinalı fanat 1/8 final matçı üçün nəzərdə tutulan iki biletin hərəsini 31 min rubla satmağa çalışarkən yaxalanıb.

Qeyd edək ki, daha öncə iki argentinalı azarkeş Rusiyada drondan istifadə etdiyinə görə saxlanılmışdı.






Braziliya millisinin hücumçusu Neymar DÇ-2018-də təkcə qolları ilə diqqət mərkəzində deyil. Oyunlar zamanı tez-tez kobudluğa məruz qalan və yıxılan hücumçu haqqında maraqlı statistika açıqlanıb.

"Dream Team" portalının paylaşdığı xəbərdə Neymarın mundial zamanı düz 14 dəqiqə yerdə qaldığı bildirilib. 23 dəfə rəqib oyunçular tərəfindən kobudluğa məruz qalan oyunçu üst-üstə bu qədər zamanı oyundan kənarda keçirib.

O, ən çox 1/8 finalın Meksika ilə oyununda yerdə qıvrılıb - 5 dəqiqə 30 saniyə. Bu müddətin çox hissəsi isə Migel Layunun aut xətti yaxınlığında Neymarın ayağını tapdalaması zamanı qeydə alınıb.

İsveçrə ilə matçda isə Neymar 3 dəqiqə 40 saniyəni qazonda keçirib.

***Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"***

# Hüquq elminə dəyərli töhfə

Əvvəli 4-cü səh.

Erməni daşnakları tərəfindən təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın digər regionlarında 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilmişdir. Ermənilərin soyqırımı siyasəti təkcə azərbaycanlıların məhv edilməsi ilə məhdudlaşmır, bu, digər etnik və milli qrupların da qətlə yetirilməsinə gətirib çıxarmışdır. Belə ki, Azərbaycan yəhudi icmasının Azərbaycan Respublikasının Prezidentinə ünvanladığı məktubdan da göründüyü kimi, 1918-1919-cu illər ərzində törədilən Quba soyqırımı zamanı 3000-ə qədər yəhudi öldürülmüşdür.

Tədqiqat əsərində Qaradağlı kəndində, Xocalıda və Ağdabanda törədilən soyqırımı cinayətləri ətraflı şəkildə qələmə alınmışdır. Burada Xocalı soyqırımının törədilməsi ilə bağlı niyyətin mövcudluğu və faktiki konkret aktın törədilməsi tam sübuta yetirilmişdir. Həmin dövrdə Ermənistanın prezidenti olan Levon Ter-Petrosyan erməni ordusuna müraciətində söyləmişdir: "Siz, ermənilər düşməni öldürərkən ürəyi yumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir". Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan isə ermənilərin həqiqi simasını açaraq xarici jurnalistlə müsahibəsində bildirmişdir: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmaz. Biz bu stereotipi dağıtdıq. Məhz bu baş verdi". Bunlar ermənilərin soyqırımı törətdiklərinə dair etiraflarıdır. R.Köçəryanın prezidentliyi dövründə onun xanımı Bella Köçəryan Yerevan Qanköçürmə Mərkəzinin açılışında XXI əsrdə müstəsna olaraq erməni qanından ibarət ayrıca qan bankı mərkəzinin açılması təklifini irəli sürərək söyləmişdir ki, erməni qanında səciyyəvi genetik faktorlar vardır və ermənilərə yalnız erməni qanı köçürmək lazımdır. Sual yaranır: dünyanın heç bir millətinin qanını qəbul etməyən erməni millətçiləri nə düşünür? Bu digər dünya xalqlarına birbaşa hörmətsizlik deyilmi?

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən Milli Məclisin 24 fevral 1994-cü il tarixli qərarına uyğun olaraq, erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı hadisələri hər il fevralın 26-da "Xocalı soyqırımı günü" kimi qeyd edilir. Bundan əlavə, ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" 690 nömrəli Fərmanı isə tarixin ayrı-ayrı mərhələlərində xalqımızın üzləşdiyi beynəlxalq cinayətlərin, soyqırımı aktlarının istənilən aspektdən araşdırılması, "Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək" istiqamətində mühüm addım hesab olunmalıdır. Həmin sənədə uyğun olaraq hər il 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir.

Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılması haqqında Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli Sərəncamında isə qeyd edilir ki, Quba şəhərindəki kütləvi məzarlıqda soyqırımı nəticəsində hədsiz amansızlıq və xüsusi qəddarlıqla öldürülən azərbaycanlılarla yanaşı, ləzgilərin, yəhudilərin, tatların və digər milli azlıqlara mənsub olan minlərlə insanların zorakılığa məruz qaldığı aşkar edilmişdir. Sərəncamla erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Azərbaycanın Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılması qərara alınmışdır.

Kitabın növbəti fəsli Azərbaycana qarşı Ermənistan tərəfindən törədilən müharibə cinayətlərinə həsr edilmişdir. Burada söhbət müharibə qurbanlarının beynəlxalq hüquqi müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarının ciddi pozuntusundan gedir. Həmin hissədə Azərbaycan ərazilərinin işğalı nəticəsində ətraf mühitə vurulan ciddi ziyan əks olunmuşdur.

Digər bir məsələ: nə qədər insan girov, əsir götürülüb və itkin düşüb! Bu insanlar üzərində qanunsuz məhkəmələr qurulub! Bunlar özü 1949-cu il Cenevrə Konvensiyalarının ciddi şəkildə pozulması deməkdir və müharibə cinayətləridir. Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 1 fevral 2018-ci ilə olan rəsmi məlumatına görə qeydiyyatdan keçən itkin düşmüş şəxslərin sayı 3875 nəfərdir ki, onlardan 3165 nəfəri hərbçi, 710 nəfəri isə mülki şəxsdir. İtkin düşmüş şəxslərdən 67 nəfərini uşaqlar (23 nəfər qız, 44 nəfər oğlan), 265 nəfərini qadınlar, 326 (o cümlədən 166 qadın) nəfərini isə qocalar təşkil edir. Bununla yanaşı, 871 nəfərin əsir-girov götürülməsi barədə məlumat mövcuddur ki, onlardan 602 nəfərini hərbçi, 269 nəfərini mülki şəxs təşkil edir. Həmin şəxslərin 29 nəfəri uşaqlar (7 nəfər qız, 22 nəfər oğlan), 98 nəfəri qadınlar, 113 nəfəri (o cümlədən 64 nəfər qadın) isə qocalardan ibarətdir

Ən mühüm beynəlxalq cinayətlərdən biri başqa dövlətlərin vətəndaşlarının - ermənilərin qanunsuz olaraq Qarabağa və ətraf 7 rayona köçürülməsidir. Erməni mənbələrində bunlar açıq etiraf edilir. Halbuki bunlar ağır müharibə cinayətləridir. Bu faktlardan bəziləri kitabda əks olunmuşdur. Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 2015-ci il məlumatlarına görə, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə 8500, Laçına 13000, Kəlbəcərə 700, Zəngilana 520, Cəbrayıla 280 nəfər olmaqla, cəmi 23000 nəfər şəxs qeyri-qanuni olaraq məskunlaşma üçün köçürülmüşdür.

Növbəti beşinci fəsil Ermənistanın Azərbaycana qarşı törətdiyi insanlıq əleyhinə cinayətlərdir. Bunlar insanların kütləvi öldürülməsi, işgəncələr, deportasiyalar və digər vəhşiliklərdir. Kitabda tam olaraq belə bir nəticəyə gəlinir ki, azərbaycanlılara qarşı törədilən insanlıq əleyhinə cinayətlərin bünövrəsində soydaşlarımızın milli və etnik əsaslarla təqibi dayanmışdır. Məhz bu təqiblər insanlıq əleyhinə cinayətlərin törədilməsi üçün "ideoloji baza" rolunu oynamışdır.

Növbəti altıncı fəsil ermənilərin ən çox istifadə etdiyi terror cinayətləridir. Ermənilərin terror cinayətləri 3 qrupa bölünür. Kitabda Ermənistanın azərbaycanlılara və Azərbaycana qarşı terrorçuluq hərəkətləri beynəlxalq hüququn prinsiplərinin pozulması, törədilmiş beynəlxalq cinayətlərlə qarşılıqlı əlaqədə olan ictimai-təhlükəli əməl və sadəcə terrorçuluq kimi nəzərdən keçirilir.

Bütövlükdə götürdükdə, hədəfləri və zərərçəkən qurbanlarının tərkibinin müxtəlifliyi baxımından Ermənistanın dövlət səviyyəsində terror siyasətini və erməni terror təşkilatlarının fəaliyyətini üç aspektdən qiymətləndirmək olar. Bunlardan birincisi erməni terror təşkilatlarının qlobal miqyasda dünya dövlətlərinin hər hansı birində müxtəlif terror aktları törətməsi ilə bağlıdır. Erməni terrorunun hədəfinin ikinci istiqaməti isə Türkiyə Cümhuriyyəti və türklər hesab olunur ki, burada qurban qismində türk diplomatlarını xüsusilə qeyd etmək lazımdır. Ermənistanın dövlət səviyyəsində terror siyasəti və erməni terror təşkilatlarının fəaliyyətinin üçüncü aspekti və ən başlıcası azərbaycanlılara və Azərbaycana qarşı yönəlmiş cinayətkar fəaliyyətdir.

Kitab bu sözlərlə bitir: "Ümidvarıq ki, qeyd edilən məsələlərin həlli beynəlxalq ədalətin bərpasına, beynəlxalq hüquq normalarına olan ümidlərin artmasına, beynəlxalq səviyyədə cəzasızlıq mühitinin aradan qaldırılmasına, nəhayət, cinayət qurbanlarının pozulmuş hüquqlarının bərpasına gətirib çıxaracaqdır".

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

*Təkrar*

**"Azərişıq"ASC 2018-ci ildə tələb olunan Xüsusi sayğacoxuma avadanlıqlarının satın alınması üzrə**

**açıq tender elan edir**

Tender 1 (bir) LOT üzrə keçirilir:
**LOT-1**
Xüsusi sayğacoxuma avadanlıqlarının satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**VÖEN:** 9900069391
**Hesab №:** AZ83AIIB33020029441802068118
**Benefisiarın Bankı:** "Kapital Bank"ın Gənclik filialı
**Kod:** 200189
**VÖEN:** 9900003611
**Müxbir hesab №:** AZ37NABZ01350100000000001944
**SWIFT Code:** AIIBAZ2X

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqələndirici şəxs - Emin Əmirov**
**(telefon: 440-39-93 daxili (22-21))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 iyul 2018-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **01 avqust 2018-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 avqust 2018-ci il tarixdə saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

**B İ L D İ R İ Ş**

"Azərbaycan" qəzetinin 13 və 24 fevral 2018-ci il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 46 LOT-dan ibarət açıq tenderdə aşağıda göstərilmiş 2 LOT üzrə qalib **"R.İ.S.K. Elmi İstehsalat Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti** olmuşdur. Qalib şirkətlə 22 iyun 2018-ci il tarixdə hər lot üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır:

- LOT 27. Fiziki təhlükəsizlik sahəsində perimetrə giriş-çıxışı idarəetmə və binanın girişinə nəzarət sistemi (CPAM) və video-müşahidə sisteminə (VSOM) (Support lisenziyaları/Smartnet daxil olaraq) texniki xidmətin satın alınması;
- LOT 29. Şəbəkə hücumlarını aşkarlama və mühafizə sistemi üzrə texniki xidmətin satın alınması.

***Tender komissiyası***

## AMADA kotirovkalar sorğusunun nəticələrini elan edir

"Azərbaycan Milli Antidopinq Agentliyi" 12.06.2018-ci il tarixində elan edilmiş və 22.06.2018-ci il tarixində keçirilmiş kotirovka sorğusunun nəticələrini elan edir:

**LOT 1.** Sığorta xidmətləri - "AXA MBASK" ASC və "BAKI SIĞORTA" ASC

**LOT 2.** Maddələrin İnformasiya Sistemi - "NEURON TECHNOLOGIES" MMC

***Tender komissiyası***

## Yəməndə qiyamçılar 814 qadını qətlə yetirmişlər

2014-cü ildə Yəməndə münaqişə başladığı dövrdən bəri "Ənsar Allah" (hövsilər) hərəkatından olan qiyamçılar 814 qadını qətlə yetirmişlər. Bu barədə Cenevrədə Yəmənin insan hüquqları üzrə naziri Məhəmməd Əsgər məlumat vermişdir. Onun dediyinə görə, son 4 il ərzində hövsilər ölkənin 4179 qadın sakinini yaralamışlar.

"Qiyamçılar təzyiq göstərir və qadınlara qarşı zorakılıq tətbiq edirlər" - deyə Məhəmməd Əsgər vurğulamışdır. O, xatırlatmışdır ki, fevralda Taiz şəhəri yaxınlığında snayperlər Yəməndə İnsan hüquqlarının pozulmasının təhqiqatı üzrə komissiyanın üzvü Rihəm Bədri öldürmüşlər.

Nazir qeyd etmişdir ki, qiyamçılar həmçinin uşaqları və yeniyetmələri qətlə yetirir, oğurlayır, habelə döyüş əməliyyatlarına cəlb edirlər.

**B İ L D İ R İ Ş**

"Azərbaycan" qəzetinin 16 mart, 06, 26 aprel, 03, 12, 25 may və 21 iyun 2018-ci il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına tikinti və elektrik mal-materiallarının satın alınması məqsədilə dərc edilmiş tenderdə **2, 3, 8-ci** LOT-lar üzrə yetərsay olmadığı üçün tender təkliflərinin və təklif təminatlarının qəbulu **17 iyul 2018-ci il saat 16:00-a,** təkliflərin açılışı isə **18 iyul 2018-ci il saat 16:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs: satınalmaların təşkili və idarə olunması departamentinin tenderlərin təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767 (2249))

***Tender komissiyası***

***Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsi tərəfindən 01.12.1999-cu il Çingiz Ağaseyid oğlu İbrahimovun adına Bakı şəhəri, Səbail rayonu, N.Rəfibəyli küçəsi, 16 ünvanında yerləşən 69,2 kvadratmetr qeyri-yaşayış sahəsinə verilmiş 001809 saylı Mülkiyyət hüququ haqqında Şəhadətnamənin texniki pasportu itdiyi üçün etibarsız sayılır.***

***Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Dövlət Əmlakının Özəlləşdirilməsi Departamenti tərəfindən 14.09.2001-ci il Çingiz Ağaseyid oğlu İbrahimovun adına Bakı şəhəri, Səbail rayonu, N.Rəfibəyli küçəsi, 16 ünvanında yerləşən 90,3 kvadratmetr qeyri-yaşayış sahəsinə verilmiş 000124 saylı Mülkiyyət hüququ haqqında Şəhadətnamənin texniki pasportu itdiyi üçün etibarsız sayılır.***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Qvatemalada itkin düşənlərin sayı 332 nəfərə çatdı



Qvatemala hökumətinin məlumatına görə, "Fueqo" vulkanının püskürməsi nəticəsində itkin düşənlərin sayı 332 nəfərə çatmışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

İtkin düşənlərin sayının dəyişməsi hakimiyyət orqanlarının sakinlərin qeydiyyatını yoxladıqdan sonra baş vermişdir.

Bundan əvvəl bildirilmişdir ki, 100-dən çox adamın həyatına son qoymuş "Fueqo" vulkanı yenidən oyanmağa başlamışdır. Məlumata görə, mütəxəssislər vulkanın kraterində partlayışlar qeydə almışlar.

## Fransada iğtişaşlar zamanı 11 nəfər tutuldu



Fransanın qərbində yerləşən Nant şəhərində polis kütləvi iğtişaşlar zamanı 11 nəfəri saxlamışdır. Etiraz aksiyalarının səbəbi kimi hüquq mühafizə orqanları əməkdaşlarından birinin 22 yaşlı yerli sakini güllələməsi göstərilir.

BFM TV tekekanalının xəbərinə görə, gecə saatlarında radikal əhvali-ruhiyyətli etirazçılar "Molotov kokteylləri" ilə 50-yə yaxın avtomobilə od vurmuş, 10 müəssisəni talan etmişlər.

Şəhərdə kütləvi iğtişaşlar srağagün, polis əməkdaşları sənədlərini təqdim etməyən və qaçmağa cəhd edən 22 yaşlı sürücünü güllələdikdən sonra başlamışdır. Onun həlak olmasından sonra hadisənin rəsmi versiyası ilə razılaşmayan bir qrup adam istehkamlar quraraq avtomobillərə, binalara və polislərə içərisində yandırıcı maddələr olan butulkalar atmışlar. Asayiş keşikçiləri buna cavab olaraq gözyaşardıcı qazdan istifadə etmişlər.

## Pakistanda leysan yağışları 14 nəfərin həyatına son qoydu



Pakistanın şimal rayonlarında yağan leysan yağışları nəticəsində azı 14 nəfər həlak olmuş, 19 nəfər xəsarət almışdır. Bu barədə Təbii fəlakətlərin fəsadlarının aradan qaldırılması üzrə milli idarə məlumat verir.

Bildirilir ki, təbii fəlakətdən ən çox zərər çəkən Pəncab əyalətidir. Orada qurbanların sayı 12 nəfərə çatmışdır. Daha 17 nəfər yaralanmışdır. Bundan əlavə, Hayber-Pahtunhva əyalətində 2 nəfər həlak olmuşdur.

Yaxın günlərdə yağıntıların intensivliyinin xeyli azalacağı gözlənilir. Bundan sonra hakimiyyət orqanları genişmiqyaslı xilasetmə əməliyyatı keçirə biləcək.

## Azadlıq heykəlinə çıxan qadına görə minlərlə adam təxliyə olundu



Amerikanın Nyu York şəhərində Azadlıq heykəlinin yerləşdiyi adadan 4,5 min nəfər təxliyə edilmişdir. Buna səbəb heykəlin ayağına dırmaşan qadın olmuşdur. Bu barədə "The New York Times" qəzeti xəbər verir.

İnsident ABŞ-ın Müstəqillik günündə baş vermişdir. Tereza Okumu Prezident Donald Trampın siyasətinə qarşı etiraz əlaməti olaraq heykəlin ayağına dırmaşmışdır. Polislərin tələbini rədd etdikdən sonra qadını güc tətbiq etməklə yerə düşürmüşlər.

Həmin gün polis həm də miqrantlara qarşı aparılan siyasətə etiraz edən 7 nəfəri saxlamışdır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Lalə Mahmudovaya anası

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Avtomobil Yollarının İstismarı və Təmiri İdarəsinin Regional və yerli əhəmiyyətli avtomobil yollarının istismarı və təmiri şöbəsinin rəis müavini

**YUSİF BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ənvər Seyidov ailəsi ilə birlikdə Bakı Apelyasiya Məhkəməsinin sədri İman Nağıyevə atası

**MƏMMƏD NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, professor

**SÜLEYMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Şirvan İnzibati-İqtisadi Məhkəməsinin sədri Mehman Nuriyev və məhkəmənin kollektivi Cəlilabad Rayon Məhkəməsinin hakimi Elxan Əmirəliyevə bacısı

**TƏNZİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8190
Sifariş 1954